QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

№ 098 (5570) 23 may 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. Qiyməti 40 qəpik

# Ölkəmizdə sənayenin inkişafı üçün mühüm addımlar atılır

*Prezident İlham Əliyev Bakıda yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışında iştirak edib*




Səh 2

Akademik Arif Paşayev: Yolların və elmi istiqamətlərin kəsişməsində



8

Serbiya Prezidenti Aleksandr Vuçiç Milli Məclisdə olub



4

Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə əlaqədar müzakirələr aparılıb



4

Kaliforniya qubernatoru: “Azərbaycan dünyanın ən sürətlə inkişaf edən və çağdaşlaşan dövlətlərindən birinə çevrilib”



6

YAP Gənclər Birliyi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir təşkil edib



4

“Əli Kərimli 30 ildir ki, siyasi bataqlıqda çabalayır”



14

12

Merkel Soçidə: geosiyasi alternativ axtarışı?



11

İstedadlı uşaqların vaxtından əvvəl I sinfə qəbulu ləğv edilir



16

Zidan açıqladı: “Ronaldonu Salaha dəyişmərəm”



# Ölkəmizdə sənayenin inkişafı üçün mühüm addımlar atılır

## *Prezident İlham Əliyev Bakıda yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışında iştirak edib*




***Mayın 22-də Bakının Suraxanı rayonunda "ATEF Şirkətlər Qrupu"nun yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.***

İqtisadiyyat naziri Şahin Mustafayev şirkətlər qrupunun yaranması və fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, "ATEF Şirkətlər Qrupu" innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsulları istehsal edən müəssisələrdən biridir və son illərdə ölkədə sənayenin inkişafı sahəsində görülən işləri təcəssüm etdirir.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq həyata keçirilən iqtisadi islahatlar və iqtisadiyyatın şaxələndirilməsi siyasəti nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılıb, yüzlərlə müasir sənaye müəssisəsi açılıb. 2017-ci ildə ötən illə








müqayisədə qeyri-neft sənaye məhsulları istehsalı 3,7 faiz artıb. Bu dinamika bu ilin birinci rübündə də davam edib, ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz artıma nail olunub.

"ATEF Şirkətlər Qrupu"nun rəhbəri Talıb Əlixanbəyov şirkətin Əmircan qəsəbəsindəki Bakı yağ transformatorları zavodu, Hövsandakı metal konstruksiya zavodu, Qaraçuxur qəsəbəsində iriqabaritli transformatorlar və elektrotexniki avadanlıqlar zavodları barədə məlumat verdi. Bildirildi ki, dövlətin güzəştli kreditlərindən istifadə etməklə Qaraçuxur qəsəbəsində inşa olunan iriqabaritli transformatorlar zavodu 2016-cı ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib, həmin ərazidə yüksək gərginlikli avadanlıqlar zavodunun təməli qoyulub.

Ümumi investisiya dəyəri 29,7 milyon manat olan zavodun yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bundan başqa, müəssisəyə nazirlik tərəfindən investisiya təşviqi sənədi verilib ki, nəticədə 4,2 milyon manat vəsaitə qənaət olunaraq investisiya kimi layihənin icrasına yönəldilib. Müasir texnologiyalar əsasında yaradılan bu zavod inkişaf etmiş ölkələrin istehsalı olan avadanlıqlarla təchiz edilib. Eyni zamanda, "ATEF Şirkətlər Qrupu"nun ümumi dəyəri 20 milyon manat olan iriqabaritli transformatorlar və elektrotexniki avadanlıqlar və metal-konstruksiyalar zavodlarının yaradılmasına verilən 5 milyon manat güzəştli kredit vəsaitindən istifadə olunub və tam geri qaytarılıb.

Prezident İlham Əliyev yüksək gərginlikli avadanlıqlar zavodunu işə saldı.

Ardı Səh. 3

# Ölkəmizdə sənayenin inkişafı üçün mühüm addımlar atılır

## *Prezident İlham Əliyev Bakıda yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışında iştirak edib*

Əvvəli Səh. 2

Dövlətimizin başçısı istehsal prosesi ilə tanış oldu.

Bildirildi ki, ümumi sahəsi 18 min kvadratmetr olan zavod 7 istehsal sahəsindən - bərk izolyasiya, kabel və mis anod istehsalı, əritmə və ekstruziya, mexaniki emal, yığma və sınaq sahələrindən ibarətdir. Zavodda illik 5 min 300 ədəd müxtəlif növ elektrotexniki avadanlıqların, o cümlədən güc transformatorları üçün izolyasiya detalları, yüksəkgərginlikli vakuum və eleqaz tipli açarlar, ayırıcılar, torpaqlayıcılar, ölçü transformatorları, kabellər və transformator buraxılışında istifadə olunan digər hissələrin istehsalı mümkündür. Qeyd olundu ki, bu məhsulların istehsalı üçün tələb olunan xammal və köməkçi detallar əvvəllər xarici bazarlardan alınırdı. Zavodun sınaq laboratoriyası da müasir səviyyədədir. Burada yerli mütəxəssislər beynəlxalq təcrübəyə əsaslanan intellektual biliklərdən istifadə edirlər. Yüksək gərginlikli avadanlıqlar zavodunun fəaliyyətə başlaması ilə transformator, yarımstansiya və digər elektrik avadanlıqlarının istehsalında yerli materiallardan istifadə olunması nəticəsində lokalizasiya səviyyəsi 70-90 faizə çatacaq ki, bu da buraxılan məhsulların maya dəyərinin aşağı düşməsinə, idxaldan asılılığın və ölkədən valyuta axınının qarşısının alınmasına səbəb olacaq. Zavodda 310 yeni iş yeri açılıb.





Diqqətə çatdırıldı ki, "ATEF Şirkətlər Qrupu" 2018-ci ildə 160 milyon dollar, o cümlədən ölkə daxilində 5 milyon dollar dəyərində, xarici ölkələrdə isə 155 milyon dollar dəyərində layihələrin həyata keçirilməsini qarşıya məqsəd qoyub. Xarici ölkələrdə layihələrin həyata keçirilməsi zamanı şirkətin istehsal etdiyi 95 milyon dollar dəyərində məhsulların ixracı nəzərdə tutulur. Hazırda şirkətlər qrupu xarici ölkələrdə nəzərdə tutulan bu layihələr üzrə dəyəri 100 milyon dollaradək olan tenderlərdə iştirak edir.

Məlumat üçün deyək ki, 2017-ci ildə dünyanın aparıcı sınaq laboratoriyalarından olan İtaliyanın "CESİ" laboratoriyasında "ATEF Şirkətlər Qrupu"nun yüksək gərginlikli avadanlıqlar zavodunda istehsal edilən 40 MVA və 145 kV-luq güc transformatoru, Niderlandda yerləşən "KEMA" laboratoriyasında isə zavodun istehsal etdiyi gücü 2500 kVA-ya qədər olan yağ və quru tipli paylayıcı transformatorlar uğurla sınaqdan keçirilib, beynəlxalq sertifikatlar alınıb.

Dövlətimizin başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, qeyri-neft sənayesinin şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların dövriyyəyə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni sənaye məhsulları istehsalı sahələrinin yaradılması istiqamətində mühüm işlər görülür. Belə müəssisələrin yaradılması göstərir ki, ölkəmizin sənaye potensialının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər uğurla davam edir. Dövlətin hərtərəfli dəstəyi ilə yaradılan bu müəssisələrin müasir texnologiyalardan istifadə yolu ilə istehsal etdiyi məhsulların ixrac coğrafiyası və həcmi isə ildən-ilə artır. Belə ki, 2013-cü ildə 5 milyon dollar dəyərində məhsul ixrac olunduğu halda, 2017-ci ildə 27 milyon dollar dəyərində məhsul ixrac edilib. Bu ilin ilk dörd ayında isə 16 milyon dollar dəyərində məhsul ixrac olunub. Qeyd edək ki, hazırda "ATEF Şirkətlər Qrupu"nun müəssisələrində ümumilikdə 2400 nəfər işlə təmin olunub. Sonda xatirə şəkli çəkdirildi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev mayın 22-də Azərbaycanın görkəmli alimi, tanınmış ictimai xadim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Cəlal Əliyevin 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Milli Elmlər Akademiyası Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə akademik Cəlal Əliyevin 90 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirəcək. Bu Sərəncamdan irəli gələn məsələlərin həll edilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılıb.

***

Prezident İlham Əliyev "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 22 dekabr tarixli 499 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev mayın 22-də "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin yaradılması haqqında" Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Ekologiya və Təbii Sərvətlər Nazirliyi işçilərinin peşə bayramı münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi sahəsində xidmətləri olan şəxslərə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Goranboy rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin yol patrul xidməti əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 14 fevral tarixli 378 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.



## Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə əlaqədar müzakirələr aparılıb

Mayın 22-də Baş nazirin müavini, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT-nin İnkişaf Proqramının Avropa və MDB ölkələri üzrə Regional Ofisinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə Qrupunun rəhbəri Corc Buma ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi, BMT İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai və rezident əlaqələndiricinin müavini Alessandro Frakasetti Alessandro da iştirak ediblər. Görüşdə Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) yerinə yetirilməsində MAPS Missiya (Aktuallaşdırma, Sürətləndirmə və Siyasətə Dəstək) çərçivəsində müəyyən edilmiş sürətləndirici tədbirlərin həyata keçirilməsi istiqamətində DİM-lər üzrə Əlaqələndirmə Şurasının göstərdiyi səylərə BMT İnkişaf Proqramının davamlı dəstəyi müzakirə edilib. Baş nazirin müavini Əli Əhmədov bildirib ki, Azərbaycan Hökuməti öz vəzifələrinə kifayət qədər məsuliyyətlə yanaşır. Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb və Şuranın daimi əsaslarla fəaliyyət göstərən katibliyi formalaşıb. Azərbaycan Hökuməti Dayanıqlı İnkişaf Məqsədlərindən irəli gələn vəzifələri həyata keçirmək üçün bütün qüvvələrini səfərbər edib və Baş nazirin müavininin Milli Əlaqələndirmə Şurasına sədr təyin olunması bu məsələyə olan diqqətin göstəricisidir. Milli Əlaqələndirmə Şurası qısa vaxt ərzində bir çox mühüm işlər görüb. Baş nazirin müavini diqqətə çatdırıb ki, Azərbaycan qlobal əməkdaşlıqlara çox böyük əhəmiyyət verir. Bu cür əməkdaşlıqların möhkəmləndirilməsi əsas məqsəd və vəzifələrdəndir. Görüş zamanı Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində həyata keçirilən tədbirlərin reallaşmasında BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və ofisinin verdiyi dəstək qeyd edilib. Bildirilib ki, yaranan səmərəli əməkdaşlıq modeli tədbirlərin həyata keçirilməsinə çox ciddi dəstəkdir.

BMT-nin İnkişaf Proqramının Avropa və MDB ölkələri üzrə Regional Ofisinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə Qrupunun rəhbəri Corc Buma Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində daim Azərbaycana dəstək olacaqlarını deyib, səmərəli tərəfdaşlıqdan məmnunluqlarını ifadə edib.

## Serbiya Prezidenti Aleksandr Vuçiç Milli Məclisdə olub

Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç mayın 22-də Azərbaycan Respublikası Milli Məclisində olub. AZƏRTAC xəbər verir ki, Serbiya Prezidenti əvvəlcə Milli Məclisin iclas salonuna baxıb, parlamentin binasındakı Heydər Əli-



yev Xatirə Zalında olub. Burada qonağa Ümummilli Liderin həyat və fəaliyyəti, xarici ölkə rəhbərlərinin müxtəlif illərdə Azərbaycana səfərləri zamanı Heydər Əliyevlə görüşlərini əks etdirən fotoşəkillər, tarixi sənədlər, eləcə də Azərbaycan parlamentinin formalaşmasında və beynəlxalq əlaqələrinin qurulmasında Ulu Öndərin xidmətləri barədə məlumat verilib.

Serbiya Prezidenti xatirə kitabına ürək sözlərini yazıb. Sonra Milli Məclisin sədri Oqtay Əsədov ilə Serbiya Prezidenti Aleksandr Vuçiç arasında görüş olub. Oqtay Əsədov Aleksandr Vuçiçin vaxtilə Serbiyanın Baş naziri kimi də Milli Məclisdə olduğunu xatırladıb. Ölkələrimiz arasında əlaqələrin tarixindən danışan Milli Məclisin sədri münasibətlərimizin yeni müstəvidə inkişaf etdiyini bildirib. Vurğulayıb ki, ölkələrimiz bir-birinin ərazi bütövlüyünü dəstəkləyir. Oqtay Əsədov iki ölkə arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı potensialın olduğunu söyləyib. O, ölkələrimiz arasında imzalanmış sənədlərin ikitərəfli münasibətlərin hüquqi bazasını təşkil etdiyini bildirib. Azərbaycan-Serbiya parlamentlərarası əlaqələrindən danışan Milli Məclisin sədri dostluq qruplarının fəaliyyətini yüksək qiymətləndirib. O, beynəlxalq qurumlardakı əməkdaşlığın da razılıq doğurduğunu söyləyib. Prezident Aleksandr Vuçiç Azərbaycan-Serbiya əlaqələrinin inkişafından məmnunluğunu bildirib. Ölkələrimiz arasındakı münasibətlərin daha da genişlənməsi üçün böyük potensialın olduğunu deyən Serbiya Prezidenti bu istiqamətdə lazımi addımların atıldığını diqqətə çatdırıb. Serbiya dövlətinin başçısı qeyd edib ki, ölkəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləyəcək. O, Serbiyanın ərazi bütövlüyü və suverenliyi məsələsində göstərdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü bildirib. Vurğulayıb ki, Serbiya da hər zaman Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyəcək. Ali qonaq ölkəmizi uğurla reallaşdırdığı böyük layihələrə görə təbrik edib.

## YAP Gənclər Birliyi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir təşkil edib



Mayın 22-də Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyi Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş tədbir keçirib. AZƏRTAC xəbər verir ki, partiyanın Xətai rayon təşkilatının qərargahında keçirilən tədbirdə




çıxış edən YAP Gənclər Birliyinin sədri Seymur Orucov Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının xalqımızın həyatında böyük və əlamətdar hadisə olduğunu bildirib. O, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın müstəqillik əzminin göstəricisi olduğunu qeyd edib.

YAP Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmov müsəlman Şərqində ilk parlamentli respublikanın məhz Azərbaycanda yaradılmasının qürurverici olduğunu vurğulayıb. O bildirib ki, Cümhuriyyətin qurucuları Azərbaycanın müstəqilliyini elan etməklə təkcə xalqımız üçün deyil, bütün İslam dünyası üçün böyük addım atıblar.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin Katibliyinin rəisi - Prezidentin köməkçisi Dilarə Seyidzadə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ay müddətində əldə etdiyi mühüm uğurlardan danışıb. O bildirib ki, 1918-1920-ci illər dövlətçilik tariximizin şanlı səhifələrindəndir. Azadlıq ideyalarına, demokratik dəyərlərə sadiq qalan Cümhuriyyətin qurucuları olduqca ağır ictimai-siyasi şəraitdə Azərbaycanın istiqlaliyyətini elan edərək xalqımızın müstəqillik arzularını gerçəkləşdirdilər.

Dilarə Seyidzadə deyib ki, ümummilli liderimiz Heydər Əliyev öz fəaliyyətində hər zaman Azərbaycan Xalq Cümhuriyyətinə yüksək önəm verərək, həmin tarixi dövrün dərindən tədqiq edilməsinə, varislik prinsipinin qorunaraq daha da inkişaf etdirilməsinə xüsusi diqqətlə yanaşıb. Cümhuriyyətin beynəlxalq və ölkədaxili fəaliyyətinin əhəmiyyətini hər zaman yüksək qiymətləndirən ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin geniş qeyd olunması, eləcə də 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında sərəncamlar imzalaması tariximizə, keçmişimizə böyük ehtiramın təcəssümüdür.

Prezidentin köməkçisi gənclərimizin Cümhuriyyətin dəyərlərini, onun tarixini dərindən öyrənmələrinin və geniş təbliğ etmələrinin vacibliyini bildirib, tədbir iştirakçılarının suallarını cavablandırıb.

## Xarici İşlər Nazirliyində geniştərkibli iclas keçirilib

Xarici işlər naziri Elmar Məmmədyarovun sədrliyi ilə xarici işlər nazirinin müavinləri, kollegiya üzvləri, xüsusi tapşırıqlar üzrə səfirlər, nazirliyin idarə və struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə geniştərkibli iclas keçirilib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Elmar Məmmədyarov Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə xarici işlər nazirinin müavini təyin olunmuş Ramiz Həsənovu təqdim edib və ona fəaliyyətində uğurlar arzulayıb. Nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqil, tarazlaşdırılmış və çoxistiqamətli xarici siyasət yürütdüyünü qeyd edərək, dövlət başçısı tərəfindən Xarici İşlər Nazirliyinin qarşısında qoyulmuş vəzifə və tapşırıqları diqqətə çatdırıb.



İclasda 2019-cu ilin Azərbaycanda diplomatik xidmətin yaranmasının 100 illik yubileyinin olduğu qeyd edilib. Xarici işlər nazirinin müavini təyin olunmuş Ramiz Həsənov Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunu bitirib. O, Azərbaycanın Gürcüstanda fövqəladə və səlahiyyətli səfiri, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri kimi vəzifələrdə çalışıb.

# Mir Cəlal Paşayev şərəfli müəllim, alim, yazıçı ömrü yaşayıb

***Mayın 22-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) görkəmli yazıçı və ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin anadan olmasının 110 illiyinə həsr edilmiş "Mir Cəlal - yazıçı, alim və müəllim" respublika elmi konfransı keçirilib.***



Konfransda ölkəmizin tanınmış və nüfuzlu alimləri, ziyalılar iştirak ediblər. ADPU-dan AZƏRTAC-a bildirilib ki, tədbir iştirakçıları əvvəlcə professor Mir Cəlal Paşayevin əsərləri ilə tanış olublar. Rektor Cəfər Cəfərov Mir Cəlalın həyat və yaradıcılığı barədə məlumat verib. Qeyd olunub ki, böyük alim, örnək pedaqoq, tanınmış yazıçı olan Mir Cəlal Paşayevin yaradıcılığında insan və zaman haqqında düşüncələr xüsusi yer tutur.

Konfransda Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Təhsin Mütəllibov "Mir Cəlal xatirələrdə" mövzusunda məruzə ilə çıxış edib.

Professor qeyd edib ki, nəcib və xeyirxah insanların əməlləri onların özlərindən sonra da yaşayır. Bugünkü konfrans bunu bir daha təsdiqləyir. Xatirələr insanın ikinci ömrüdür. Mir Cəlal Paşayev zəngin, mənalı, şərəfli bir müəllim, alim, yazıçı ömrü yaşayıb. Müəllimlik onun fəaliyyətində aparıcı yer tutub. Professor Mir Cəlal Paşayev əsl şəxsiyyət idi. Səbirli, müdrik, alicənab, həssas, sadə və səmimi bir insan olan Mir Cəlal həmişə tələbələrin mövqeyindən çıxış edər, onların qayğısına qalardı. O, səmərəli elmi-pedaqoji fəaliyyət göstərib. Professor Mir Cəlal Paşayevin xatirəsi həmişə bizim üçün əzizdir.

ADPU-nun professoru Buludxan Xəlilov "Yazıçı-alimin və müəllimin manifesti" mövzusunda məruzəsində bildirib ki, Mir Cəlal Paşayev müəllim, alim və yazıçı kimi cəmiyyətə layiqli bir nümunə olub. O, Məhəmməd Füzulini böyük lirik şair kimi təqdim etməyi bacarıb, ədəbi məktəblərin tədqiqində ardıcıllıq yaradıb. Professor Mir Cəlal Paşayevin sadə, səlis dili, özünəməxsus yaradıcılıq üslubu, insanlara və hadisələrə aydın yanaşma tərzi olub. O, dil, Vətən, ana, klassiklərlə müasirlərin varisliyi, vəhdəti məsələlərini gündəmə gətirib. "Bir gəncin manifesti" romanı yazıçının yaradıcılığında xüsusi yer tutur. Bütövlükdə Mir Cəlal Paşayev ədəbiyyatşünaslığın inkişafında mühüm xidmətlər göstərib.

Professorlar Asəf Zamanov, Qəzənfər Paşayev, Şirindil Alışanlı, Cəlil Nağıyev, Təyyar Cavadov, Abdulla Abasov, dosent Məti Osmanoğlu, yazıçı Elçin Hüseynbəyli çıxış edərək Mir Cəlal Paşayevi XX əsr Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndələrindən biri kimi səciyyələndirib, onun roman yaradıcılığını yüksək dəyərləndiriblər.

# Milli Məclisin komitə iclasında 2017-ci ilin dövlət büdcəsinin icrası müzakirə olunub

***Mayın 22-də Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası müzakirə olunub. Komitənin sədri Ziyad Səmədzadə bildirib ki, parlament dövlət büdcəsi üzərində nəzarəti təşkil edir və hər il icra haqqında məsələni müzakirə edir.***



2017-ci il dövlət büdcəsinin icrası ilə tanışlıq sübut edir ki, iqtisadiyyatımızda müsbət meyillər güclənir. Sosial proqramların icrasında maliyyə problemi olmayıb. Bu da 2018-ci il dövlət büdcəsinin daha yüksək göstəricilərlə təmin olunmasına şərait yaradıb. Azərbaycan iqtisadiyyatında müsbət tendensiyalar güclənir. 2017-ci il ərzində dövlət büdcəsinin bütün parametrlərinin icrası mümkün olub, sosial proqramlar həyata keçirilib.

Qeyd olunub ki, "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi və müvafiq hesabat "Büdcə sistemi haqqında" Qanunun müvafiq maddəsinə uyğun olaraq hazırlanıb. Hesabat Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulan xərclərin icra vəziyyəti ilə bağlı göstəricilərlə yanaşı, dövlət borcları, il ərzində götürülən dövlət borcuna xidmət, Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun, dövlət büdcəsinin ehtiyat fondunun vəsaitindən istifadə haqqında və digər zəruri məlumatları özündə əks etdirir.

İclasda iştirak edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib ki, 2017-ci ildə Azərbaycanın dövlət büdcəsinin gəlirlərində 15 mədaxil mənbəyi üzrə proqnoz tam icra olunub. Yeddi mədaxil mənbəyi üzrə isə proqnoza əməl edilməyib. Ötən il büdcə gəlirlərinin 46,8 faizi ilin birinci yarısında təmin olunub. Gəlirlər üzrə ən yüksək icra göstəricisi yol vergisi üzrə (151 faiz), ən aşağı icra göstəricisi isə səhmləri dövlətə məxsus olan müəssisələr üzrə (42,9 faiz) qeydə alınıb. Dividend ödənişlərinin az olması büdcə ilə bağlı vergi siyasətinin sərtləşdirilməsini tələb edir.

Maliyyə nazirinin müavini Azər Bayramov bildirib ki, makroiqtisadi birliyin təmin edilməsi istiqamətindəki islahatlar nəticəsində makroiqtisadi sabitlik təmin olunub. Ölkədə müsbət iqtisadi artım qeydə alınıb, iqtisadiyyata əlavə xarici valyuta daxil olub. Borc öhdəliklərinin maliyyə təminatı təmin edilib. Ötən il ərzində xarici ticarət illik müqayisədə 12,3 faiz, əmtəə ixracı 18,11 faiz, qeyri-neft əmtəə ixracı isə 24,4 faiz artıb. Ölkənin strateji valyuta ehtiyatları 4 milyard dollar artaraq ilin sonuna 41 milyard dollar səviyyəsini keçib. 2017-ci ildə icmal büdcənin gəlirləri 24 milyard manat və ya 104,8 faiz, xərcləri 25 milyard manat və ya 82,4 faiz səviyyəsində icra olunub. İcmal büdcə kəsiri 1,1 milyard təşkil edib ki, bu da proqnoza nisbətən 9,5 faiz bəndi azalaraq cəmi 1,6 faiz təşkil edib. Dövlət büdcəsinin mədaxili 16 milyard 517 milyon manat və ya 98,5 faiz icra olunub. Dövlət büdcəsinin tranfert nəzərə alınmadan gəlirləri 10 milyard 417 milyon təşkil edib. Bu da 2016-cı illə müqayisədə 526 milyon manat və ya 5,3 faiz çoxdur. Büdcə daxilolmalarının 8,633 milyard manatı qeyri-neft sektoru hesabına təmin olunub. Bu da 2016-cı ilə nisbətən 352 milyon manat və ya 4,3 faiz çoxdur. Qeyri-neft sektorundan daxilolmaların xüsusi çəkisi 2016-cı illə müqayisədə 5 faiz bəndi artaraq 52,3 faiz təşkil edib. Dövlət Neft Fondundan 2017-ci ildə 6,100 milyard manat vəsait tranfert olunub ki, bu da illik müqayisədə 19,9 faiz azdır. 2017-ci ildə Azərbaycan Mərkəzi Bankının mənfəətindən 250 milyon manat dövlət büdcəsinə ödənilib. 2017-ci ildə dövlət büdcəsinin xərcləri proqnoza nisbətən 98,1 faiz və ya 17 milyard 595 milyon manat səviyyəsində icra olunub. Xərclərin 62 faizi cari xərclərdir.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, iqtisadiyyatın qeyri-neft sektorunda istehsal edilmiş əlavə dəyər ötən ilə nisbətən 2,7 faiz artıb, qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi 62,8 faiz təşkil edib. Neft-qaz sektorunun ümumi daxili məhsulda payı 2016-cı ilə nisbətən 3,4 faiz-bənd artaraq 37,2 faiz olub. 2017-ci ildə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri üzrə icra 359,2 milyon manat təşkil edib. Deputatlar Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası barədə fikirlərini səsləndiriblər. Müzakirə olunan qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Kaliforniya qubernatoru: "Azərbaycan dünyanın ən sürətlə inkişaf edən və çağdaşlaşan dövlətlərindən birinə çevrilib"



ABŞ-ın Kaliforniya ştatının qubernatoru Edmund Braun Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı təbrik bəyannaməsi imzalayıb. Bu barədə Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan məlumat verilib. Baş konsulluğa ünvanlanmış bəyannamədə qubernator qeyd edir: "Kaliforniya ştatı adından müsəlman dünyasında ilk dünyəvi və demokratik respublika olan və ilk dəfə qadınlara səsvermə hüququ verən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Azərbaycanı təbrik etməkdən şərəf duyuram".



OFFICE OF THE GOVERNOR

May 23, 2018

*Consulate General of Azerbaijan in Los Angeles*

On behalf of the State of California, I am pleased to acknowledge the 100th anniversary of the founding of the Azerbaijan Democratic Republic, the first secular democracy in the Muslim world and the first to grant voting rights to women.

I commend Azerbaijan and its people for their long-standing tradition of peaceful co-existence and interfaith harmony among Muslims, Christians and Jews. Tens of thousands of Azerbaijani immigrants and their descendants make the Golden State their home, adding to the accomplishments of our dynamic multi-cultural state.

Since its founding in 1991, the Republic of Azerbaijan has consolidated its freedom and independence, and has become one of the world's fastest developing and modernizing countries. I wish the people of Azerbaijan continued success.

Sincerely,

EDMUND G. BROWN JR.

GOVERNOR EDMUND G. BROWN JR. • SACRAMENTO, CALIFORNIA 95814 • (916) 445-2841

E.Braun sənəddə Azərbaycanın qədim tarixə malik tolerantlıq ənənələrini, ölkəmizdə müsəlmanlar, xristianlar və yəhudilər arasında dinlərarası harmoniyanı və onların sülh şəraitində birgəyaşayışını yüksək qiymətləndirdiyini vurğulayır. Qubernator on minlərlə azərbaycanlının bu gün Kaliforniyada yaşayaraq, bu ştatın inkişafına və multikulturalizminə öz töhfələrini verdiyini diqqətə çatdırır. O, həmçinin 1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra onu gücləndirdiyini, dünyanın ən sürətlə inkişaf edən və çağdaşlaşan dövlətlərindən birinə çevrildiyini qeyd edir. Sonda qubernator Azərbaycan xalqını bir daha bu tarixi gün münasibətilə təbrik edərək, Azərbaycana bundan sonra da uğurlar arzu edir.

# "Beynəlxalq yükdaşımalar artıq Azərbaycan üçün əhəmiyyətli gəlir mənbəyinə çevrilməkdədir"



"Yeni Ələt dəniz limanı Azərbaycan üçün qeyri-neft sektorunun inkişafı baxımından çox vacibdir. Nəzərə alsaq ki, liman yükgötürmə qabiliyyətinə görə regionda ən böyük limanlardan biridir, onda Xəzər dənizi üzərindən yüklərin daşınması daha qısa müddətə reallaşacaq". Bu fikirləri yap.org.az saytına İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov deyib. V.Bayramov bildirib ki, yeni limanın istifadəyə verilməsi Azərbaycan üzərindən daha çox yük daşınmasına səbəb olacaq. Onun sözlərinə görə, Ələt dəniz limanı iqtisadiyyatın diversifikasiyası, eləcə də, ölkəyə daxil olan vəsaitlərin genişləndirilməsi baxımından da vacib hesab olunur.

"Bu, nəticə etibarilə imkan verəcək ki, liman həm ölkə üzərindən keçən beynəlxalq yükdaşımaları təşviq edə bilsin. Azərbaycan hökuməti tərəfindən həyata keçirilən siyasət, eyni zamanda beynəlxalq yükdaşımalarla bağlı prosedurların asanlaşdırılması və şəffaflığın gücləndirilməsinə xidmət edir. Azərbaycan, Gürcüstan və Qazaxıstan arasında vahid tariflərin tətbiq edilməsi ilə bağlı razılığın əldə edilməsi də beynəlxalq yükdaşımaların həcminə müsbət təsir göstərməkdədir. Həmçinin, iş adamlarının Azərbaycan üzərindən yüklərin daşınmasına marağının artmasına gətirib çıxaracaq. Qeyd edim ki, 2016-cı ildə prosedurların sadələşdirilməsi və elektronlaşmanın tətbiq edilməsi,Ələtdə limanın imkanların genişləndirilməsi, ötən il Azərbaycan üzərindən daşınan beynəlxalq qeyri-neft sektoru üzrə yüklərin 65 faiz artmasına gətirib çıxardı. Bu, onu göstərir ki, beynəlxalq yükdaşımalar artıq Azərbaycan üçün əhəmiyyətli gəlir mənbəyinə çevrilməkdədir"-deyə, iqtisadçı-ekspert qeyd edib.

# Azərbaycan Xalq Cümhuriyyəti - 100



## Azərbaycan dövlətçilik ənənələrinə sadiq dövlətdir

***Qədim dövlətçilik tarixinə, mədəniyyətinə və ənənəsinə malik olan Azərbaycan təbii sərvətləri və strateji-coğrafi mövqeyinə görə zaman-zaman güclərin diqqət mərkəzində olub və bu baxımdan, müxtəlif təzyiqlərə məruz qalıb. Belə bir gərgin ictimai-siyasi dövrünü yaşayan Azərbaycan xalqının müstəqillik arzusu və mübarizəsi isə heç vaxt tükənməyib. Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunması və Cümhuriyyətin 100 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi ilə bağlı sərəncamları dövlətçilik tariximizə olan böyük ehtiramdır.***

XX əsrin əvvəllərində Rusiya imperiyası süquta uğradıqdan sonra, müstəqil dövlət qurmaq fürsəti yaranan kimi, azərbaycanlılar mövcud şəraitdən dərhal yararlanaraq, 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik, parlamentli respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaratdılar. Azərbaycan dövlətçilik ənənələrinin və milli dövlətçilik şüurunun qorunmasında mühüm rolu olan Azərbaycan Xalq Cümhuriyyəti 23 ay mövcud olsa da, hələ o dövrdə söz azadlığı, demokratiya, gender bərabərliyi kimi məxsusi dəyərlərə malik olub. Bu dövrdə AXC müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib, onlar üçün nümunə olaraq Avropanın bir çox ölkələrindən xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verib.

AXC qısa müddətdə tarixi bir missiyanı yerinə yetirərək, genişmiqyaslı demokratik islahatlar həyata keçirib. Cümhuriyyət dövründə xalqımızın taleyinə ciddi təsir edə biləcək qanun və qərarlar qəbul olunub. Üç ay ərzində parlamentdə təxminən 270-dək qanun layihəsi müzakirəyə çıxarılıb. Onlardan 230-u qəbul olunub və parlament qəbul etdiyi qərarlarla milli dövlətçiliyin əsaslarının formalaşdırılması və gücləndirilməsinə tarixi töhfələr verib.

Onu da bildirək ki, AXC yarandığı gündən xarici və daxili qüvvələr tərəfindən müxtəlif təzyiqlərə məruz qalıb. Belə ki, həm xaricdən, həm də daxildən daşnak ermənilər, həmçinin, menşevik qüvvələr Azərbaycanın müstəqil dövlət kimi formalaşmasına mane olurdular. Lakin bütün bu çətinliklərə baxmayaraq, Cümhuriyyət dövründə milli ordumuzun yaradılması, atributlarımızın, dövlət dilimiz haqqında qanunun qəbul olunması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, Azərbaycanın sərhədlərinin və təhlükəsizliyinin təmini istiqamətində böyük işlər görülüb.

Cümhuriyyət dövründə əldə olunan nailiyyətlər sırasında təhsil sahəsində olan uğurları da qeyd etməliyik. Xalq təhsili və maarifləndirmə üzrə ilk nazirlik Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən təsis edilib. Nazirlər Şurasının qərarı ilə 30 iyun 1918-ci ildə üç şöbədən - ümumi orta təhsil, ali və orta ixtisas təhsili, peşə məktəblərindən ibarət strukturu təsdiq edilib. Xalq təhsili sahəsində ilk önəmli tədbir məktəblərin milliləşdirilməsi olub, bu da, təhsilin doğma Azərbaycan türk dilinə keçirilməsi idi. Bununla da, ilk dəfə olaraq, azərbaycanlı uşaqların doğma dildə təhsil alma hüququ qanuniləşdirilib.

Xalq Maarifi Nazirliyi 1919-20-ci il tədris ilinin əvvəlindən ali ibtidai məktəblərin bütün siniflərinin və orta tədris məktəblərinin üç sinifinin milliləşdirilməsini qərara alınıb. Mənbələrdə göstərilib ki, Bakı şəhəri milli məktəblərin inspeksiyasında və Bakı quberniyasında 1918-19-cu tədris ilində 76 rus - bunlardan Bakıda 30, əyalətlərdə isə 46 məktəb var idi. Onlardan 51-i dövlət, qalan 25-i isə şəhər, neft-sənayeçiləri qurultayına məxsus idi və özəl sayılırdı.

Tarixi dövrə nəzər saldıqda, məlum olur ki, 1918-ci ildə Səhiyyə Nazirliyi təsis edilib. Bu illərdə Bakı və Gəncə kimi şəhərlərdə onlarla yeni aptek və xəstəxana açılır. 1919-cu ildə tibb fakültəsi də olan Bakı Dövlət Universitetinin əsası qoyulub. Belə ki, həmin dövrdə yaradılmış, ölkənin ilk ali məktəbi olan bu universitet, məhz AXC-nin yadigarıdır. Burada, həmçinin, tibbin tarixi də tədris edilirdi. Bakı şəhər Dumasının 1919-cu ilin 15 iyul tarixli iclasında Şəhər Dumasının şəhər məktəblərinin müəllimləri üçün 1600 rubl təqaüd təyin edir. Bu istiqamətdə Bakı neft-sənayeçiləri də müəyyən addımlar atırdı: onların da məktəblərində müəllimlərin məvacibləri artırılmışdı.

Bakıda məktəb binaları ilə dəhşətli bir vəziyyət alınmışdı. Onların çoxu ya tamamən dağıdılmış, ya da əsaslı təmir tələb olunacaq qədər bərbad idi. Hökumət Bakı şəhər ibtidai məktəblərində məktəb-sanitar nəzarətinin təşkil edilməsi üçün 827,600 rubl vəsait ayırmışdı. Məktəblilərə müxtəlif ictimai təşkilatlar da yardım göstərirdilər.

### AXC-NİN HÜQUQİ VARİSİ OLAN MÜSTƏQİL RESPUBLİKAMIZ CÜMHURİYYƏT DÖVRÜNÜN DEMOKRATİK DƏYƏRLƏRİNƏ SADİQ QALARAQ, SÜRƏTLƏ İNKİŞAF EDİR

Dövrün nadir sistemi olan AXC cəmi 23 ay yaşadı və bolşeviklərin işğalı ilə üzləşərək Sovet İttifaqının bir hissəsinə çevrildi. Nəhayət, 71 ildən sonra, Sovet İttifaqının dağılması ilə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdi. Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra xalqımız Cümhuriyyətin ideallarını davam etdirərək, bu tarixi varislik üzərində yeni müasir müstəqil Azərbaycan dövlətini yaradıb.

AXC-nin hüquqi varisi olan müstəqil respublikamız Cümhuriyyət dövrünün demokratik dəyərlərinə sadiq qalaraq, sürətlə inkişaf edir və dünya birliyində layiqli yer tutur.

Ölkəmizin müstəqillik illərində qazandığı nailiyyətlərin bünövrəsi, məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı müstəqil Azərbaycanın təhsil siyasətində yeni dövrün başlanğıcını qoydu. Beləliklə, dağılmaq təhlükəsindən xilas olmuş ölkəmizdə təhsil sisteminin yeniləşməsi də vacib məsələ kimi qarşıda dururdu. Azərbaycanın təhsil sisteminin sovet təhsil sisteminin ideoloji buxovlarından ayrılıb, bəşəri təhsil sisteminə qovuşması üçün, ilk növbədə, yeni təhsil sisteminin nəzəriyyəsi, fəlsəfəsi, təhsil sahəsində dövlət siyasətinin əsas istiqamətləri, konseptual müddəaları, fəaliyyət prinsipləri, təhsilin məzmunu, məqsədi və strukturu müəyyənləşdirilməli idi.

Müstəqil Azərbaycan dövləti öz müstəqil təhsil siyasətini həyata keçirmək üçün ilkin islahatların keçirilməsinə başladı. 1999-cu ilə Ulu Öndər "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı"nın təsdiq edilməsi haqqında" Sərəncam verdi. Heydər Əliyevin müəllifi olduğu Təhsil İslahatı Proqramı yeni dövrün təhsil tarixində əhəmiyyətli yer tutur. Bu islahatlar təhsilin əksər sahələrini əhatə edirdi, ancaq başlıca istiqamət orta ümumtəhsil məktəblərinin inkişafına, onların maddi-texniki bazalarının möhkəmləndirilməsinə yönəldilmişdi.

Təhsilin maddi-texniki bazasının yüksəldilməsi dövlətimizin qarşıya qoyduğu vacib məsələlərdən idi. Ulu Öndər yeni məktəblərin tikintisi ilə bağlı Dövlət Proqramının hazırlanmasını əhəmiyyətli məsələ kimi qarşıya qoymuşdu və 2003-cü il fevralın 17-də Ümummilli Lider "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinn tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqramın (2003-2007-ci illər)" təsdiq edilməsi haqqında" Sərəncam imzaladı.

Bu gün fəxrlə deyə bilərik ki, məktəb tikintisi sahəsində Azərbaycan MDB məkanında ilk yerlərdən birini tutur. Ulu Öndərin siyasətinin uğurlu davamçısı Prezident İlham Əliyev məktəb tikintisini çox vacib məsələ kimi qarşıya qoymuş və hazırda bu sahədə yeni proqramlar reallaşdırılmaqdadır.

Təhsilin inkişafına xidmət göstərən onlarla Dövlət Proqramı qəbul edilmişdir. Bu proqramlar məktəbəqədər təhsil, texniki peşə, orta ümumtəhsil və ali məktəblərin inkişafını nəzərdə tutan dövlət əhəmiyyətli fəaliyyət istiqamətlərini müəyyənləşdirir.

Dövlətimizin təhsillə bağlı qəbul etdiyi inkişafyönlü proqramlar təhsilimizin inkişafına davamlı xarakter verməklə, onu dünya standartları səviyyəsində qurmağa da imkan yaradır. Pedaqoji kadr hazırlığı, xüsusi istedada malik uşaqların yaradıcılıq potensialının inkişafı, məktəbəqədər təhsilin yeniləşdirilməsi, məktəblərin avadanlıqlarla təmin olunması, gənclərin xaricdə təhsil almaları, texniki peşə təhsilinin təkmilləşdirilməsi, ali məktəblərin inkişafı və s. məsələlərlə bağlı qəbul olunmuş proqramların bir qismi həyata keçirilmiş, bəziləri isə reallaşmaq üzrədir.

### AZƏRBAYCAN TƏHSİLİNƏ YÖNƏLMİŞ DİQQƏT ZAMANIN TƏLƏBLƏRİNİ ÖDƏYƏ BİLƏCƏK ZİYALILARIN YETİŞMƏSİNƏ DOĞRU UĞURLU BİR ADDIMDIR

Məktəb tikintisi ilə bağlı qəbul olunmuş dövlət proqramları bu sahədə sürətli inkişafı təmin edib. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı qəbul olunan dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilir. Bakı və Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında yeni məktəblərin tikintisinə diqqət yetirməklə yanaşı, mövcud məktəblərin əsaslı təmirinə də yer ayrılıb. Yeni təhsil müəssisələrinin tikintisi, mövcud məktəblər üçün əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla, laboratoriyalarla təminatı, istilik sisteminin bərpası nəticəsində, ümumilikdə, ölkə üzrə 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılmışdır. Məktəb tikintisi sahəsində görülən işlər nəticəsində, ikinövbəli məktəblərin sayı xeyli azalıb. Məlumdur ki, ölkəmizdə olan məktəblərin əksəriyyəti ötən əsrini 30-cu, 40-cı illərdə, bəziləri isə 50-ci, 70-ci illərdə inşa olunub. Təbii ki, 70-80 il əvvəl tikilən binalar bu günün tələbinə cavab vermir və çox yararsız vəziyyətdə idi. Müasir dövrümüzdə məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər bu sahədə olan çətinlikləri aradan qaldırıb. Yüksək şəraiti ilə seçilən və müasir təlim avadanlıqları ilə təmin olunan məktəblər şagirdlərin istifadəsinə verilib.

Azərbaycanın dünyaya inteqrasiya olunduğu zamanda Azərbaycan təhsilinə yönəlmiş diqqət, məhz bu sahədə zamanın tələblərini ödəyə biləcək ziyalıların yetişməsinə doğru uğurlu bir addımdır.

***Nəzakət ƏLƏDDİNQIZI***






# "Azərbaycan Xalq Cümhuriyyəti dövründə aqrar islahatlar" mövzusunda elmi-praktiki seminar keçirilib

***Dünən AMEA-nın əsas binasında "Azərbaycan Xalq Cümhuriyyəti dövründə aqrar islahatlar" mövzusunda elmi-praktiki seminar keçirilib. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan tədbir AMEA-nın Qafqazşünaslıq, Torpaqşünaslıq və Aqrokimya institutları və Alimlər Evinin birgə təşkilatçılığı ilə reallaşıb.***

Tədbirdə Alimlər Evinin müdiri, tarix üzrə fəlsəfə doktoru Nuridə Quliyeva çıxış edərək, bildirib ki, 1918-ci ildə, ilk dəfə olaraq, müsəlman Şərqində Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Çox böyük siyasi və hərbi təzyiqlərə baxmayaraq, Azərbaycanın vətənpərvər oğulları hesabına müstəqillik elan olundu. Müasir müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir".

Genetik Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Zeynal Əkpərov çıxış edərək, Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın qədim dövlətçilik tarixinin şanlı səhifələrindən olduğunu diqqətə çatdırıb. AXC və müasir Azərbaycanın oxşar və fərqli cəhətlərindən danışan alim Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olan müstəqil respublikamızda aqrar sahənin inkişafı ilə bağlı görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verib. Tədbirdə Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Musa Qasımlı "Müsəlman Şəqinin ilk Cümhuriyyəti" mövzusunda məruzə ilə çıxış edərək, bildirib ki, Şərqdə ilk demokratik respublika olan AXC-nin yaranması xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi idi.

Tədbirdə İqtisadiyyat İnstitutunun əməkdaşı, iqtisadiyyat üzrə fəlsəfə doktoru Seyfəddin Səmənderovun "Azərbaycan Xalq Cümhuriyyəti dövründə aqrar islahatlar haqqında", AMEA-nın aqrar məsələlər üzrə müşaviri, akademik Qərib Məmmədov "Heydər Əliyevin aqrar siyasəti" mövzusunda məruzələrlə çıxış edərək, AXC-nin yaranması və qurucuları, 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın dövlət müstəqilliyinin elan olunması, "İstiqlal bəyannaməsi"nin qəbul edilməsi və s. ətrafında danışıblar.

Çıxışlarda qeyd olunub ki, Azərbaycanda kənd təsərrüfatının inkişafı, bu məqsədlə aqrar sahədə həyata keçirilən islahatlar, xüsusən, onun tərkib hissəsi olan torpaq islahatlarının aparılması, bu istiqamətdə qazanılan uğurlar, bilavasitə Dahi Siyasi Xadim Heydər Əliyevin tarixi xidmətləri ilə bağlıdır. Hazırda Ümummilli Lider Heydər Əliyevin aqrar siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıl və uğurla həyata keçirilir. Kənd təsərrüfatı məhsulları istehsalı ildən-ilə çoxalır, aqrar bölmənin dinamik inkişafı təmin olunur və regionların sosial-iqtisadi inkişafı məsələlərinə dair dövlət proqramları qəbul edilərək, yerinə yetirilir. Mövzu ilə bağlı digər çıxış edənlər AXC dövrünün daha dərindən öyrənilərək, gələcək nəsillərə çatdırılmasının zəruriliyini qeyd ediblər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# TAPI: qaz kəmərinin tikintisi nəzərdə tutulan qrafikə uyğun davam etdirilir

Baş verən hadisəyə baxmayaraq, "TAPI Pipeline Company Limited" əfqan xalqına dinclik və sabitlik gətirəcək Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan qaz kəmərinin tikinti işlərini nəzərdə tutulan qrafikə uyğun davam etdirir. AZƏRTAC xəbər verir ki, "TAPI Pipeline Company Limited"in mətbuat üçün məlumatında 2018-ci il mayın 21-də səhər saat 9-a yaxın naməlum adamlar tərəfindən hücum cəhdi olduğu qeyd edilir. İnsident Əfqanıstanın ən təhlükəli rayonlarından birində - Mayvand qəzasında baş verib. Buna baxmayaraq, hazırda boru kəməri trasının Əfqanıstanda, o cümlədən adıçəkilən qəzada çöl tədqiqatlarının 70 faizi uğurla başa çatdırılıb və ya tamamlanma mərhələsindədir. 1500 nəfər əməkdaşın təhlükəsizliyi ilə bağlı heç bir problem müşahidə olunmayıb. Bu insident Əfqanıstan ərazisində aparılan çöl tədqiqatlarında baş verən ilk haldır. Hadisə ilə bağlı araşdırma aparılır. Həmçinin layihə şirkəti tərəfindən podratçılarla birgə əməkdaşların təhlükəsizliyinin təminatı üzrə əlavə tədbirlər görülür.

# ABŞ konqresmeni Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə bəyanatla çıxış edib



ABŞ Konqresinin üzvü Skot Perri (Respublikaçı - Pensilvaniya) Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranmasının 100 illik yubileyi münasibətilə Nümayəndələr Palatasında bəyanatla çıxış edib.

Bəyanatda 1917-ci il inqilabından və Birinci Dünya müharibəsi zamanı Rusiya qoşunlarının Qafqaz cəbhəsindən çəkilməsindən sonra Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini elan etdiyi bildirilir. Müstəqilliyinin qısa olmasına baxmayaraq, AXC-nin hazırkı müstəqil Azərbaycanın formalaşması üçün əsas təşkil etdiyi və 1991-ci ildən sonra regionda və dünyada artan vacib rola malik olduğu vurğulanır.

Bəyanatda qeyd olunur ki, Azərbaycan ABŞ-ın əsas hərbi müttəfiqlərindəndir. Azərbaycan sülhməramlılarının ABŞ və NATO qüvvələri ilə birgə vaxtilə Kosovoda, İraqda xidmət etdiyi, bu gün Əfqanıstanda NATO-nun Qətiyyətli Dəstək Missiyasında 120 nəfərdən ibarət qüvvəsinin olduğu qeyd edilir.

Azərbaycanın enerji sektorunda lider olduğu, dünyanın ilk neft quyularından birinin 1848-ci ildə Bakının cənubunda qazıldığı, öz təbii ehtiyatlarını inkişaf etdirdiyi, Trans-Anadolu kəmərini tikməklə Avropanın qaz asılılığını azaltmağa yardım etdiyi bəyanatda diqqətə çatdırılır. Azərbaycanın zəngin qaz ehtiyatlarının onun "Odlar yurdu" kimi tanınmasına gətirib çıxardığı qeyd olunur.

Bəyanatda Azərbaycana dostluğuna görə minnətdarlıq bildirilir və xalqına davamlı sülh, əmin-amanlıq arzu olunur.

# Yaxın vaxtlarda Azərbaycanın Latviya və Ukraynada Ticarət evləri fəaliyyətə başlayacaq

Yaxın vaxtlarda Azərbaycanın Latviya və Ukraynada Ticarət evləri fəaliyyətə başlayacaq. AZƏRTAC xəbər verir ki, bu barədə İqtisadiyyat Nazirliyinin geniş kollegiya iclasında bildirilib. Qeyd edilib ki, artıq Azərbaycanın Belarusda Ticarət Evi fəaliyyət göstərir və indiyədək bu ticarət evi vasitəsilə ölkəmizdən Belarusa 84 tondan artıq meyvə-tərəvəz məhsulları, zeytun yağı, nar şirəsi və çay ixrac edilib. Yaxın vaxtlarda Azərbaycanın Latviya və Ukraynada Ticarət evləri fəaliyyətə başlayacaq. Hazırda Azərbaycanın BƏƏ, Çin və Rusiyada Ticarət evlərinin açılması imkanları araşdırılır.

# Muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalında 3,4 faiz artım qeydə alınıb

Bu ilin yanvar-aprel aylarında muxtar respublikada 38 milyon 757 min 900 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, bu dövr ərzində diri çəkidə ət istehsalı 7821 tona, süd istehsalı isə 25 min 278 tona çatıb. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 5 faiz, süd istehsalı isə 2 faiz artıb.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 376 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 250 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

# Gənclər Kitabxanasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd olunub



Mayın 22-də Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə "Cümhuriyyət-100" adlı "dəyirmi masa" keçirilib. Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib.

AZƏRTAC xəbər verir ki, kitabxananın direktoru, Əməkdar Mədəniyyət İşçisi Tahir Sadıqov cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin mürəkkəb bir dövrdə fəaliyyət göstərməsinə baxmayaraq, dövlətçilik baxımından mühüm işlərə imza atdığını söyləyib. Diqqətə çatdırıb ki, parlamentin yaradılması, Azərbaycan dilinin dövlət dili elan olunması, dövlət atributlarının təsis edilməsi, Şərqdə ilk dəfə olaraq qadınlara seçki hüququnun verilməsi demokratik respublikanın əldə etdiyi nailiyyətlər olub.

Dünya Azərbaycanlıları Gənclərinin İnkişafına Dəstək İctimai Birliyinin sədri Tofiq Əlizadə, Sevastopolda "Qobustan" radiosunun redaktoru Həbib Əliyev, şairlər Zərəngiz Dəmirçi, Zaməddin Ziyadoğlu və başqaları Cümhuriyyət dövründə ordu quruculuğu, siyasət və iqtisadiyyatda baş verən irəliləyişlərlə yanaşı, Azərbaycan ədəbiyyatının da özünəməxsus inkişaf yolu keçdiyini bildiriblər. Tədbirdə Cümhuriyyət dövrünə həsr edilən videoçarx nümayiş etdirilib.

# Akademik Arif Paşayev: Yolların və elmi istiqamətlərin kəsişməsində



ИНДУСТРИЯ

инженерная газета

2018
МАЙ
№ 6
(1680)

газета выходит с 1990 г.

ИДЕМ НА ПРОРЫВ

Президент
Российской Федерации
Владимир Путин

Вступая в должность Президента России, особенно остро осознаю свою колоссальную ответственность перед всем нашим многонациональным народом, ответственность перед Россией – страной грандиозных побед и свершений, перед тысячелетней историей российской государственности и нашими предками. Их мужество, неустанный труд, непобедимое единство, священное отношение к родной земле – вечный пример преданности Отчизне.

Считаю своим долгом и смыслом всей своей жизни сделать все для России, для ее настоящего и будущего – мирного и процветающего, для сбережения и продолжения нашего великого народа, для благополучия в каждой российской семье. Заверяю вас, целью моей жизни, работы будет, как и прежде, служение людям, нашему Отечеству. Для меня это превыше всего.

Россия должна быть современной и динамичной, должна быть готова смело принимать вызовы времени и так же энергично отвечать на них, чтобы последовательно наращивать свое лидерство в тех сферах, где мы традиционно сильны, и уверенно, кропотливо, собрав волю в кулак

Президент
Международной
и Российской
инженерных
академий, член-
корреспондент РАН
**Борис Гусев**

**Совместными усилиями**

*Наши старшие коллеги были прозорливы: когда на изломе истории политики спешили растащить экономику великой страны по «национальным квартирам», они поставили вопрос о сохранении единого научного, инженерного и образовательного пространства. Одним из воплощений этого замысла и стала Международная инженерная академия (МИА).*

*Сегодня, когда перед Россией поставлены прорывные задачи, наличие такой интегрированной структуры можно рассматривать как дополнительный ресурс.*

*Большую роль в организации МИА сыграли ее почетные президенты, академики Академии наук СССР И.А.Глебов, А.Ю.Ишлинский, Б.Е.Патон и др. Сегодня в составе МИА более 15 стран имеют инженерные академии, отделения и представительства, среди ее 1330 членов из 40 стран – руководители государств и правительств, видные ученые, общественные деятели и руководители крупных научных и промышленных структур.*

*Совместные усилия Международной и Российской инженерных академий позволяют сконцентрировать усилия по развитию энергетики, материаловедения, промышленных технологий на основе автоматизации и робо-*

**Приняв эстафету мирового прогресса**

Президент
Национальной
инженерной академии
Республики
Казахстан,
депутат Сената
Парламента РК
**Бакытжан**
**Жумагулов**

Одним из важнейших общенациональных проектов Республики Казахстан 2017 года стало проведение Всемирной выставки EXPO-2017 «Энергия будущего». Теперь в число ключевых задач инженерного сообщества Казахстана вошла задача сохранить и нарастить научно-технический импульс EXPO, транслировать в практику самые прогрессивные идеи, представление на Всемирной выставке и Первом Всемирном конгрессе инженеров и ученых «Энергия будущего: инновационные сценарии и методы их реализации» (WSEC 2017).

«Главное значение EXPO – это направленность в сторону научно-технического прогресса, – подчеркнул, подводя итоги выставки, глава нашего государства Нурсултан Назарбаев. По его словам,

**По пути формирования цифровой экономики**

Директор
Новосибирского
регионального
отделения Российской
инженерной академии
**Игорь Болдырев**

В утвержденной в России «Стратегии развития информационного общества РФ на 2017-2030 годы» подчеркивается: «Цифровая экономика – это хозяйственная деятельность, в которой ключевым фактором производства являются данные в цифровом виде, обработка больших объемов и использование результатов анализа которых по сравнению с традиционными формами хозяйствования позволяют существенно повысить эффективность различных видов производства, технологий, оборудования, хранения, продажи, доставки товаров и услуг».

Соответственно, Президент России Владимир Путин на инвестиционном форуме «Россия зовет» заявил: «Уверен, развитие цифровой экономики, запуск новых бизнес-

**На перекрестье дорог и научных направлений**

Президент
Азербайджанской
инженерной
академии, академик
**Ариф**
**Пашаев**

Азербайджанская инженерная академия (АИА) объединяет в своих рядах докторов и кандидатов наук, профессоров и доцентов ведущих научно-исследовательских организаций и вузов, основателей инженерных научных направлений. Среди членов академии – лауреаты Государственной премии, заслуженные деятели науки и техники, обладатели других почетных званий.

Члены академии принимают активное участие в разработке государственных стандартов высшего образования. Проводятся ежегодные семинары, школы для молодых ученых по направлению «Авиакосмос». Члены АИА приняли участие в аккредитации вузов страны. Создана система мониторинга качества высшего и среднего

***Moskvada nəşr olunan "İnjenernaə qazeta"nın may nömrəsində Azərbaycan Mühəndislik Akademiyasının (AMA) prezidenti, akademik Arif Paşayevin "Yolların və elmi istiqamətlərin kəsişməsində" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC məqaləni təqdim edir.***

***

Azərbaycan Mühəndislik Akademiyası (AMA) yaradıcı şəxsiyyətin özünüifadəsinə, təhsilin inkişafına, Azərbaycanda tətbiqi elmi tədqiqatların genişləndirilməsinə yönəlmiş bütün mühəndislik istiqamətləri üzrə alim və mütəxəssisləri öz sıralarında birləşdirən ictimai yaradıcı elmi təşkilatdır.

Akademiyanın sıralarında aparıcı elmi tədqiqat təşkilatlarının və ali məktəblərin elmlər doktorları və namizədləri, professorlar və dosentlər, mühəndislik elmi istiqamətlərinin əsasını qoyanlar cəmləşib. Akademiyanın üzvləri arasında Dövlət Mükafatı laureatları, əməkdar elm və texnika xadimləri, digər fəxri ad sahibləri vardır.

Akademiyanın üzvləri ali təhsilin dövlət standartlarının işlənib hazırlanmasında fəal iştirak edirlər. "Aviakosmos" istiqaməti üzrə gənc alimlər üçün hər il seminarlar, məktəblər təşkil edilir. AMA üzvləri ölkənin ali məktəblərinin akkreditasiyası prosesində iştirak ediblər. Elmi tədqiqat institutlarının proqramları əsasında ali və orta ixtisas təhsilinin keyfiyyətinin monitorinqi sistemi yaradılıb.

Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı həyata keçirilir. Orbitə çıxarılmış telekommunikasiya peykinin köməyi ilə hazırda 150-dən çox telekanal və 30 radiostansiya vasitəsilə yayım aparılır.

Bu il Azərbaycan Fransanın "Arianespace" şirkəti ilə birlikdə daha bir peyki orbitə çıxaracaq. "Azerspace-2" adlı bu peyk hazırda orbitdə olan "Azerspace-1" peykinin əhatə dairəsini genişləndirməklə bərabər, həm də onun ehtiyat variantı kimi xidmət edəcək. Bu, müştərilərə daha etibarlı xidmətlər göstərməyə imkan verəcək. Peykin xidmət zonası Avropa, Mərkəzi və Cənubi Asiya, Yaxın Şərq və Afrika ölkələrini əhatə edəcək. Mühəndislik Akademiyası bu proqramın reallaşdırılmasında fəal iştirak edir və Kosmos üzrə Şuraya rəhbərlik edir. Mühəndislik Akademiyası təbii ehtiyatların idarə edilməsi və istismarı ilə bağlı məsələlərin həllində, fotoqrammetrik və geoinformasiya layihələrinin icrası, tematik geoportalların və geoinformasiya sistemlərinin işlənib hazırlanmasında, aviakosmik informasiyanın işlənməsi üçün sifarişçinin alqoritmləri və metodikaları əsasında innovasiya texnologiyalarının yaradılmasında, habelə konsaltinq və kadr hazırlığı məsələlərinin həllində peykdən informasiyanın operativ qəbulu sahəsində "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin nailiyyətlərini əsas götürür.

Ətraf mühitin neftdən çirklənməsi parametrlərinin qiymətləndirilməsi üçün yüksək ayırdetmə qabiliyyətli RADARSAT-2 kosmik radiolokasiya sistemindən istifadə edilməsi əsasında Xəzər dənizinin Azərbaycan sektoru akvatoriyasında neft sızmalarının parametrləri aşkar edilib. RADARSAT-2 peykinin radiolokasiya təsvirlərindən və geoinformasiya yanaşmalarından istifadə əsasında Neft Daşları rayonunda neft ləkələrinin dinamikası və bu cür tullantıların obyektləri təhlil edilib, ləkələrin paylanması xəritəsi yaradılıb. Bu, aşkar edilmiş neft ləkələrinin parametrlərini və xarakteristikalarını operativ şəkildə ölçməyə, tədqiq olunan akvatoriyanın müxtəlif sahələrində neftin paylanmasını təhlil etməyə, dənizdə çirklənmələr və onların mənbələri arasında əlaqəni aşkar etməyə imkan verir.

2017-ci ildə energetika sahəsində tarixi hadisələr baş verib. Belə hadisələrdən biri də "Azəri-Çıraq-Günəşli" yatağına dair kontraktın müddətinin 2050-ci ilə qədər uzadılmasıdır. Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR digər tərəfdaşlarla birlikdə bu layihədə operator kimi iştirak edəcək. Azərbaycan Mühəndislik Akademiyasının üzvlərinin də fəal iştirak etdiyi bu layihə sayəsində biz hələ uzun illər boyu neft hasilatını sabit səviyyədə saxlaya biləcəyik. Cənub Qaz Dəhlizi, TANAP və TAP kimi qlobal layihələr uğurla həyata keçirilir.

Marşrutların şaxələndirilməsi və Böyük İpək Yolu üzərində yerləşən ölkələrlə iqtisadi əlaqələrin genişləndirilməsi baxımından Avropa qitəsinin də nəqliyyat müstəqilliyini təmin edən daha bir genişmiqyaslı transregional layihə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Mühəndislik Akademiyasının üzvlərinin də iştirak etdiyi bu tarixi layihənin həyata keçirilməsi nəticəsində Azərbaycan beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilir. Bizim Akademiyanın üzvləri İran sərhədinə qədər dəmir yolu çəkilişini təmin edən Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşdırılması istiqamətində mühüm addımlar atırlar.

Azərbaycanda Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin birinci mərhələsi çərçivəsində Hollandiyanın "Royal Haskoning" şirkəti ilə birgə inşa edilmiş bərə terminalı açılıb. Bu layihədə Azərbaycan Mühəndislik Akademiyasının üzvləri də çox fəal iştirak ediblər. Limanda yükaşırmanın illik həcmi 25 milyon ton yükə və 1 milyon konteynerə bərabər olacaq. Layihəyə əsasən limanda logistika mərkəzinin yaradılması da böyük əhəmiyyət kəsb edir. Bu mərkəz Azərbaycanı Qərb ilə Şərq arasında yükaşırma mərkəzinə çevirəcək.

Heydər Əliyev Beynəlxalq Aeroportunun ərazisində ümumi sahəsi 12 min kvadratmetr olan Bakı Yük Terminalı açılıb. Bu layihə Beynəlxalq Yerüstü Xidmət Şirkətinin (International Handling Company) maliyyə dəstəyi ilə "Khazar Construction" şirkəti tərəfindən həyata keçirilib. Böyük Britaniya, ABŞ və Kanadada istehsal edilmiş texniki avadanlıqlarla təchiz olunmuş termina-

# Akademik Arif Paşayev: Yolların və elmi istiqamətlərin kəsişməsində

lın əlverişli ərazidə yerləşməsi sayəsində Azərbaycan Amerikadan və Avropadan Asiyaya, eləcə də Asiyadan əks istiqamətdə daşınan yüklər üçün aşırma məntəqəsinə çevriləcək. Bu, "İpək Yolu" layihəsinin ayrılmaz tərkib hissəsidir. Bundan əlavə, terminal bütün regionlardan respublikamıza yük axınını xeyli artırmağa imkan verəcək, nəticədə Bakı avtomatik surətdə mühüm tranzit zonaya çevriləcək. Ekspertlər təsdiqləyirlər ki, bu terminal MDB məkanında ən böyük və texniki cəhətdən ən yaxşı təchiz olunmuş yük terminalıdır. Həmçinin bu terminal bütün Avropada ən yüksək beynəlxalq tələblərə cavab verən ən yaxşı yük terminallarından biridir. Terminalın texniki bazası yüklərin bütün növlərinin saxlanmasını və işlənməsini, müştərilər üçün servis xidmətlərinin keyfiyyətini xeyli artırmağı, gömrük xidmətlərinin tam dəstini, o cümlədən gömrük bəyannaməsi və yüklərin çatdırılması üzrə xidmətləri nəzərdə tutur. Aviaşirkət qeyri-neft sektorunun sərmayələşdirilməsi üzrə birinci yeri tutur. Bütövlükdə nəqliyyat sektoru çox sürətlə inkişaf edir. Dövlət konserninin işi sayəsində yeni təyyarələr, helikopterlər alınır, aeroportlar modernləşdirilir, dəmir yolu yükdaşımalarının həcmi artır, yeni tankerlər və quru yük gəmiləri istifadəyə verilir, yol tikintisi inkişaf edir. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin reallaşdırılmasında mühüm rol oynayır.

2017-ci il bir sıra yeni layihələrin iştirakçısı kimi Azərbaycan Mühəndislik Akademiyası üçün iqtisadiyyatda artımın təmin edilməsi, iri infrastruktur layihələrinin həyata keçirilməsi, genişmiqyaslı regional və beynəlxalq sammitlərin keçirilməsi ilə əlamətdar və səmərəli il olub.

Akademiyada sənaye innovasiya texnologiyalarının tətbiqi sahəsində ayrı-ayrı müəssisə və birliklərin sifarişi ilə təcrübə üçün əhəmiyyətli məsələlər həyata keçirilir. Məsələn, "Aqreqat" İstehsalat Birliyinin sifarişi ilə gücü 2000 vatta qədər olan aviasiya qızdırıcıları üçün termostabilizasiya və qəza ayırma qurğusu yaradılıb. Azərbaycan Mühəndislik Akademiyası çərçivəsində "İqlim" elm-istehsalat müəssisəsinin sifarişi ilə çoxdamarlı sıxacların avtomatik yoxlanması və sınaqları üçün daha mükəmməl qurğunun yaradılması başa çatdırılıb. Bu qurğu sıxacların prinsipial sxemə uyğunluğuna avtomatik nəzarət, rabitəsiz elektrik dövrələrinin izolyasiya müqavimətinin yoxlanması, idarəedici proqram və fərdi kompüter vasitəsilə onların elektrik möhkəmliyinin sınaqdan keçirilməsi üçün nəzərdə tutulub.

Suyun ilkin tərkibi mürəkkəb və çox çirklənmiş olduğu yaşayış məntəqələri üçün içməli suyun təmizlənməsi məqsədilə sutkalıq məhsuldarlığı 36, 60 və 100 tona bərabər olan modul qurğuları yeni avtomatik idarəetmə bloku yaradılıb. Qurğu modulun işini məsafədən, simsiz müşahidə və idarə etməyə imkan verir. İndiyə qədər bu layihə əsasında yaşayış məntəqələri üçün içməli suyu təmizləyən modul tipli 260 konteyner hazırlanıb.

Aeroportlar zonasında uçma-enmə zolağının sərhədlərindən keçmək niyyətində olan yerüstü nəqliyyat vasitələrinin icazəsiz daxil olması kimi potensial təhlükənin qarşısının alınması sistemi yaradılıb və sınaqdan keçirilib. Həmçinin sistemin işləyən nümunə hazırlanıb və sınaqdan keçirilib. Nəqliyyat sistemlərinin intellektual idarəetmə kompleksinin yaradılması üzrə iş aparılır.

Akademiyanın alim və mühəndisləri neft-kimya texnologiyaları sahəsində neft-qaz mədənlərinin tərkibində hidrogen-sulfid və karbon qazı olan lay sularında metalın müdafiəsi üçün korroziya ingibitorları yaradıblar. Bu ingibitorların yaradılması zamanı neft-kimya sintezi üçün xammal mənbələri kimi təbii və sintetik üzvi turşulardan istifadə edilib. Tərkibində karbon qazı çox olan lay suları şəraitində metalı qorumağa imkan verən çoxfunksiyalı və yüksək səmərəli korroziya ingibitorları alınıb.

Neft-kimya texnologiyaları sahəsində alimlərimizin daha bir orijinal işi neftin reoloji xassələrinin yaxşılaşdırılması üçün mərkəzində dördlü ammonium makrotsiklik birləşmələrin sintezi üsuludur. Bu, ağır neftlərin özlülüyünü aşağı salmağa və neft qatranlarının miqdarını azaltmağa imkan verəcək.

Akademiyanın alimləri tərəfindən aviasiya, təbabət, kənd təsərrüfatı və ölkə iqtisadiyyatının digər sahələrində istifadə edilən xüsusi ozonlaşdırma texnologiyası və müvafiq avadanlıq yaradılıb.

Akademiya aviadaşımalar zamanı infeksion xəstəliklərin yayılması riski ilə əlaqədar uçuşların təhlükəsizliyi problemi üzərində "Azərbaycan Hava Yolları" QSC ilə birlikdə fəal iş aparır. İnsanın və ətraf mühitin təhlükəsizliyi sahəsində sanitar-epidemioloji tələblərə və normalara cavab verən kompozision dielektrik izolyasiyalı ikibaryerli ozonatorlar işlənib hazırlanıb və yaradılıb. Onların orijinallığı və analoqlarla müqayisədə yüksək keyfiyyəti patentlər və sertifikatlarla təsdiq edilib. Hazırda Akademiyada məxsusi olaraq işlənib hazırlanmış, İKAO-ya və Dünya Səhiyyə Təşkilatına təqdim olunmuş proqram əsasında ozondan aviasiyada istifadənin hərtərəfli öyrənilməsi məqsədilə xüsusi elmi-texniki istiqamətdə işlər aparılır.

Kənd təsərrüfatının inkişafı sahəsində ölkənin aqrar təhlükəsizliyinin təmin edilməsi məqsədilə aqrar-sənaye sektorunda quraqlığa davamlı kənd təsərrüfatı bitkilərinin yaradılması, Azərbaycan Respublikasının aran və dağətəyi quraqlıq zonalarında və dağ yamaclarında eroziyaya qarşı mübarizə və sudan istifadə proqramlarını xüsusi qeyd etmək lazımdır. Azərbaycan Mühəndislik Akademiyası Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat Bitki Mühafizəsi İnstitutu ilə birlikdə çoxillik fasilədən sonra ilk dəfə olaraq pambıq əkini sahələrində rekord dərəcədə yüksək - 200 min ton məhsul almağa müvəffəq olub. Bu, əvvəlki ilin müvafiq göstəricisindən 3 dəfə çoxdur.

Buğda, qarğıdalı, arpa, pambıq, şəkər çuğunduru toxumlarının səpinqabağı stimulyasiyası texnologiyası, çayın fermentasiya üsulları yaradılıb, 2016-2017-ci illərdə yüksək məhsul alınıb. Bizim Akademiyanın mütəxəssisləri tərəfindən taxıl anbarlarının dezinfeksiyası və səpinqabağı işlənməsi üçün ozonatorlar tətbiq edilməsi nəticəsində dənli bitkilərin qorunub saxlanması, onlardan həm qida məqsədilə, həm də genetik fond kimi istifadə edilməsi üçün ekoloji şərait təmin olunub. Toxum partiyasının ozon vasitəsilə zərərsizləşdirilməsinin effektivliyi müvafiq kimyəvi vasitələrlə zərərsizləşdirmə ilə müqayisəli şəkildə qiymətləndirilib. Məlum olub ki, toxumların ozon-hava qarışığı ilə işlənməsi daha yüksək məhsuldarlığı təmin edir.

Azərbaycan bu istiqamətdə Rusiya Federasiyası ilə birlikdə kənd təsərrüfatının inkişafına dair dövlətlərarası proqram hazırlayır. Bizim Akademiya N.İ.Vavilovun genetik resurslara dair elmi irsinin inkişaf etdirilməsi üzrə birgə iş aparır.

Bütün mövcud layihələrə ölkənin aparıcı elmi potensialı - əsasən Milli Elmlər Akademiyasında, ölkənin qabaqcıl ali məktəblərində və onun intellektual innovasiya klasterində, Azərbaycan Mühəndislik Akademiyasının da aid olduğu elmi mərkəzlərdə və təşkilatlarda təmsil olunmuş qüvvələr cəlb olunur.

Milli Aviasiya Akademiyasında hər il aviakosmik problemlərin həllində gənclərin kreativ potensialının üzə çıxarılmasına və inkişaf etdirilməsinə həsr olunmuş "Fevral qiraətləri" keçirilir. Bu tədbirlərin təşkilatçıları Təhsil Nazirliyi, "Azərbaycan Hava Yolları" QSC, Milli Aviasiya Akademiyası, Azərbaycan Mühəndislik Akademiyası və "Azərkosmos" ASC-dir. "Fevral qiraətləri - 2018" çərçivəsində "Aviakosmik problemlərin həllində gənclərin yaradıcı potensialı" mövzusunda III beynəlxalq elmi-praktiki konfrans keçirilib. Konfransın işində Rusiya, ABŞ, İngiltərə və Qazaxıstandan gələn qonaqlar iştirak ediblər. Bu konfrans gənclərin intellektual potensialından aviakosmos sahəsində mövcud elmi problemlərin obyektiv və hərtərəfli araşdırılmasında istifadə imkanlarının artırılması istiqamətində mühüm addımdır. Gənclər arasında maraqlı elmi diskussiyalar və müzakirələr, riyaziyyat və fizika, müasir informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı mütəxəssislərin ustad dərsləri, "dəyirmi masalar" və digər tədbirlər keçirilir. Üç gün davam edən konfransda 8 seksiya çərçivəsində 120-dən çox məruzə dinlənilib.

Bizim mühəndislərin fikrincə, təhsil sahəsində əsas resurs məhz istedadlı və hazırlıqlı insanlar olmalıdır. Kadr potensialı kimi əsasən Milli Aviasiya Akademiyası və Azərbaycanın digər aparıcı ali məktəbləri nəzərdə tutulub. Akademiyanın üzvləri Azərbaycanın ali məktəblərində təhsilin keyfiyyətinin idarə edilməsi və yüksək ixtisaslı, o cümlədən mühəndis profilli mütəxəssislər hazırlanması üzrə iş aparırlar. Yeni iqtisadiyyata keçid problemləri, regionların innovasiyalı inkişaf üçün aparıcı texnoloji parklar kimi təsdiq olunması, bu məsələnin həllində ali məktəbin rolu və iştirakı birinci dərəcəli vəzifələr hesab edilir.

Beynəlxalq əməkdaşlıq sahəsində Azərbaycan Mühəndislik Akademiyası Beynəlxalq Mühəndislik Akademiyası ilə birlikdə Qırğızıstanın və Sloveniyanın mühəndislik akademiyaları ilə üçtərəfli müqavilə üzrə fəal iş aparır.

Bir sıra ölkələrin mühəndislik akademiyaları ilə, xüsusən Beynəlxalq Mühəndislik Akademiyası, Rusiya, Özbəkistan, Ukrayna, Belarus, Sloveniya mühəndislik akademiyaları ilə sıx əməkdaşlığı davam etdiririk. İslam Ölkələri Mühəndislik İnstitutları Federasiyasına (İÖMİF) daxil olan Azərbaycan Mühəndislik Akademiyası bu qurum və onun üzvləri ilə əməkdaşlığı genişləndirir.

"Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" adlı beynəlxalq elmi-texniki jurnal artıq doqquz ildir ki, Azərbaycanın və xarici ölkələrin elmi həyatında fəal iştirak edir. "Xəbərlər"də müasir dünya standartlarından istifadə edilməklə elektron formatda ingilis dilində məqalələrə ayrıca annotasiyalar dərc edilir, bu materiallar kommersiya məlumat bazalarından birinin köməyi ilə yayılır, xarici analitik bazaya (SCOPUS və Clarivate Analitics) keçidlə indeksləşdirmə və sitatgətirmə işləri görülür.

"Azərbaycan Mühəndislik Akademiyasının xəbərləri" jurnalı internet şəbəkəsində inteqrasiya edilmiş elmi resurs hüquqlarının sahibidir. Bu resursa Rusiyanın Elmi Sitatlar İndeksi (RESİ), elektron elmi nəşrlər, elmi nəşrlərin informasiya məlumat bazaları, habelə elmi nəşrlərin elektron versiyalarına fərdi abunə servisi daxildir. Jurnalın reytinqi RESİ-nin impakt-faktor əmsalı ilə təyin olunur. Jurnalın tammətnli elektron versiyası Rusiya Universal Elmi Elektron Kitabxanasının məlumat bazasında (www.elibrary.ru) yerləşdirilir.

Bizim Akademiyanın üzvləri il ərzində çoxsaylı konqreslərdə, beynəlxalq və regional elmi forumlarda, simpozium və konfranslarda iştirak ediblər. Alimlərimiz və mühəndislərimiz Azərbaycan iqtisadiyyatının davamlı inkişaf strategiyasının reallaşdırılması və təkmilləşdirilməsi üçün xüsusi fəallıq göstərirlər.

***Arif Paşayev***
***Azərbaycan Mühəndislik Akademiyasının prezidenti, akademik***

# Suraxanıda "Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizdə" mövzusunda elmi-praktiki konfrans keçirilib





**Dünən Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatı və Suraxanı rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizdə" mövzusunda elmi-praktiki konfrans keçirilib.**

Konfransda Milli Məclisin deputatları - AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru Musa Qasımlı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, Ağacan Abiyev, Sevinc Fətəliyeva, YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə və "Səs" qəzetinin baş Redaktoru Bəhruz Quliyev iştirak ediblər. Əvvəlcə tədbir iştirakçıları YAP Suraxanı rayon təşkilatının inzibati binasının qarşısında təşkil olunmuş kitab sərgisi ilə tanış olublar. Daha sonra konfrans akt zalında davam edib. Konfrans Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Ümummilli Lider Heydər Əliyevin və Cümhuriyyət qurucularının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov AXC-nin milli dövlətçilik tarixində mühüm yer tutduğunu bildirib. O, Ümummilli Lider Heydər Əliyevin AXC-nin fəaliyyətinə yüksək qiymət verdiyini, həmin dövrün dövlətçilik tariximizin parlaq səhifələrindən olduğunu bildirib. Prezident İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi haqqında" Sərəncamını xatırladan təşkilat sədri 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsini xalqımızın həyatında misilsiz hadisə kimi dəyərləndirib. V.Seyidov müstəqilliyimizin bərpasında, yeni dövlətimizin qurulmasında və qorunmasında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərini diqqətə çatdırıb.

Konfransda çıxış edən AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı Musa Qasımlı bildirib ki, 1918-ci il mayın 28-də qurulmuş və cəmi 23 ay fəaliyyət göstərmiş AXC zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyub, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə, respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlayıb. Onun sözlərinə görə, Azərbaycan xalqı müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib, onlar üçün nümunə olaraq Avropanın bir çox ölkələrindən xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verməklə, bütün dünya demokratiyasına böyük töhfə verib.

Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov çıxışında bildirib ki, cəmi 23 ay mövcud olmasına baxmayaraq, AXC qısa müddətdə tarixi bir missiyanı yerinə yetirərək, çox genişmiqyaslı demokratik islahatlar həyata keçirib. Onun sözlərinə görə, Cümhuriyyət dövründə millətimizin taleyinə ciddi təsir edə biləcək qanun və qərarlar qəbul olunub. Azərbaycan parlamenti bütün müsəlman Şərqində o dövrün demokratik prinsipləri əsasında formalaşdırılan ilk parlament olub. AXC qurucularının gördükləri böyük işlərdən danışan İ.Abbasov onların müsəlman Şərqində ilk demokratik respublika yaratdıqlarını söyləyib: "AXC yarandığı gündən xarici və daxili qüvvələr tərəfindən müxtəlif təzyiqlərə məruz qalıb. Həm xaricdən, həm də daxildən daşnak ermənilər, həmçinin, menşevik qüvvələr Azərbaycanın müstəqil dövlət kimi formalaşmasına mane olublar. Lakin bütün bu çətinliklərə baxmayaraq, Cümhuriyyət dövründə milli ordumuzun yaradılması, atributlarımız, dövlət dilimiz haqqında qanunun qəbul olunması, maarif və səhiyyə sahəsində geniş tədbirlərin həyata keçirilməsi, Azərbaycanın sərhədlərinin və təhlükəsizliyinin təmini istiqamətində böyük işlər görülüb. Cümhuriyyətin süqut etməsinə baxmayaraq, ötən əsrin sonlarında Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən müasir müstəqil Azərbaycan dövləti qurulub, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan qüdrətli dövlətə çevrilib".

Mədəniyyət Nazirliyinin sektor müdiri Lətifə Məmmədova isə çıxışında bildirib ki, Azərbaycan dövlətçilik ənənələrinin və milli dövlətçilik şüurunun qorunmasında AXC-nin mühüm rolu olub. Onun sözlərinə görə, bu dövrdə AXC müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmağın yolunu göstərib, onlar üçün nümunə olaraq Avropanın bir çox ölkələrindən xeyli əvvəl qadınlara seçib-seçilmək hüququ verib. Daha sonra tədbir bədii hissə ilə davam etdirilib.

**ZÜMRÜD**

# BSU-da "Beynəlxalq münasibətlər tarixi (Qədim dövr və orta əsrlər)" adlı yeni dərsliyin təqdimatı olub

***Dünən Bakı Slavyan Universitetində Beynəlxalq münasibətlər kafedrasının hazırladığı "Beynəlxalq münasibətlər tarixi (Qədim dövr və orta əsrlər)" adlı dərsliyin təqdimatı olub.***

Tədbirdə çıxış edən universitetin elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov dərsliyin tələbələr, o cümlədən, professor-müəllim heyəti üçün əhəmiyyətini qeyd edib. R.Novruzov bildirib ki, Beynəlxalq münasibətlər kafedrasının dosentləri Ləman Qarayeva, Şəhla Nuruzadə və Zümrüd Məlikovanın müəllifi olduqları dərslik elmi mənbələr əsasında və Azərbaycan Respublikasının təhsil siyasətinə müvafiq şəkildə tərtib olunub: "Müəlliflər dərslikdə qədim dövrdə və orta əsrlərdə dövlətlər arasında beynəlxalq münasibətlərin özünəməxsusluqlarını ictimai həyatın digər tərəfləri ilə sıx əlaqəli olan, eyni zamanda, öz qanunlarına əsasən, inkişaf edən xüsusi reallıq kimi təqdim etməyə çalışıblar".



Kitabın müəlliflərindən dosent Zümrüd Məlikova bildirib ki, "Beynəlxalq münasibətlər tarixi (Qədim dövr və orta əsrlər)" dörd cildlik kitabın birinci hissəsidir. Z.Məlikova qeyd edib ki, iyirmi üç fəsildən ibarət olan dərslikdə hər müəllifin yeddi mövzusu öz əksini tapıb. Sonra Z.Məlikovanın dərslikdə müəllifi olduğu mövzular barədə məruzəsi dinlənilib. Həmmüəlliflərindən biri olan dosent Ləman Qarayeva çıxışında bildirib ki, "Beynəlxalq münasibətlər tarixi (Qədim dövr və orta əsrlər)" dərslikdə sistemləşdirilmiş proqram əsasında mühüm tarixi faktlardan ibarət şərhlər öz əksini tapıb. L.Qarayeva diqqətə çatdırıb ki, dərslikdə beynəlxalq münasibətlərin formalaşmasını və təkamülünü şərh edərkən, tarixi yanaşma ilə yanaşı, siyasi və müqayisəli təhlildən də istifadə edilib. Həmmüəllif qeyd edib ki, dərslik həm bakalavrlar, həm də magistrlar üçün nəzərdə tutulub.




Tədbirdə iştirak edən AMEA-nın Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, BDU-nun Beynəlxalq münasibətlər kafedrasının professoru Ramiz Sevdimalıyev nəşr olunan yeni dərslik barədə müsbət fikirlər səsləndirib. O, yüksək səviyyəli mütəxəssislər tərəfindən ərsəyə gələn yeni dərsliyin siyasi elmlərin inkişafına mühüm töhfə olduğunu qeyd edib.

Tədbirdə BSU-nun Diplomatiya və xarici siyasət kafedrasının müdiri, dosent Əsgər Əhməd, Azərbaycan multikulturalizmi kafedrasının müdiri, dosent Hacı Rauf, Beynəlxalq münasibətlər kafedrasının dosenti Alpay Əhmədov, beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin dekanı, dosent Şirinbəy Əliyev, Beynəlxalq münasibətlər kafedrasının müdiri professoru Habil Məmmədov dərslik barədə təəssüratlarını bölüşüblər.

**ZÜMRÜD**

# "Ərzaq təhlükəsizliyi və düzgün qidalanmaya dair maarifləndirmə tədbirlərinin təşkili"

## *Bu mövzuda Uşaq və Tələbə Gənclər Dünyası İctimai Birliyi layihə çərçivəsində tədbir keçirib*

***Azərbaycan Respublikası Uşaq və Tələbə Gənclər Dünyası İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə "Ərzaq təhlükəsizliyi və düzgün qidalanmaya dair maarifləndirmə tədbirlərinin təşkili" adlı layihə çərçivəsində Suraxanı rayonunun 285, 278 və 290 saylı məktəblərində tədbirlər həyata keçirilib.***



Hər 3 məktəbdə layihə haqqında məlumat verildi, layihənin əsas məqsədinin GMO məhsullarını və gələcəkdə yaradacağı xəstəliklər izah olundu. Layihə çərçivəsində təmizlik aksiyası keçirildi. Aksiyada iştirak edən məktəblilərə təsvirli köynək, papaq, papkalar və təşəkkürnamələr hədiyyə olundu.

Tədbirdə çıxış edən layihənin rəhbəri Bəxtimşah Tağıyeva ərzaq təhlükəsizliyi və qidalanma sahəsində maarifləndirmə tədbirlərinin mühüm rol oynadığını bildirib.

Layihə çərçivəsində Suraxanı rayonunun 278, 285 və 290 saylı məktəblərində məlumatlandırma seminarı təşkil olundu və təmizlik aksiyası həyata keçirildi. Layihənin əsas məqsədi məktəblərdə qida təhlükəsizliyinin təbliğ edilməsi sahəsində potensialı artdı, maarifləndilər. İnsan sağlamlığına və dövlətçiliyin inkişafına töhfə verildi. İctimaiyyətin diqqəti bu məsələyə cəlb olundu.

# "Nar" Ramazan ayında danışıqları ikiqat sərfəli etdi

***Bütün "Nar" abunəçiləri, Ramazan ayı boyunca balanslarına yüklədikləri qədər məbləği dərhal bonus olaraq qazanırlar. Ramazan bonusları ölkədaxili bütün istiqamətlərdə zəngləri, həmçinin SMS və mobil internet xidmətindən istifadə etmək üçün sərf edilə bilər.***




Ramazan kampaniyasına qoşulan abunəçilər, faktiki olaraq, ikiqat sərfəli qiymətə danışmaq imkanı əldə edir. Üstəlik, "Nar" abunəçisi mobil xidmətlərdən istifadə edərkən, xidmət haqqı ilk növbədə balansdakı məbləğdən deyil, bonuslardan çıxılır. Kampaniyaya qoşulmaq üçün sadəcə *777#710#YES şifrəsini yığmaq kifayətdir.

Qeyd edək ki, Ramazan bonusu qazanmaq üçün balansı ən azı 2 AZN məbləğində artırmaq lazımdır. Bu kampaniya tamamilə pulsuzdur və heç bir əlavə ödəniş mövcud deyil. Kampaniya iyun ayının 19-na qədər davam edəcək. Bonusların istifadə müddəti kampaniyanın sonuna qədərdir. Bonusları *777#20#YES şifrəsi ilə yoxlmaq mümkündür. Ramazan kampaniyası və "Nar"-ın bütün tarif və kampaniyaları haqqında ətraflı məlumatı nar.az saytından əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayıb. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Hazırda "Nar" şəbəkəsi ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. "P3 Communications" tərəfindən 2017-ci ildə keçirilmiş şəbəkə sınaqları nəticəsində Nar şəbəkəsi "ən yaxşı mobil zəng xidməti" göstərən şəbəkə olaraq tanınıb.

# Müstəqilliyimiz dönməzdir, əbədidir, daimidir!

*Prezident İlham Əliyev: "Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl, ən ülvi demokratik dəyərləri, nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib"*

***Azərbaycan tarixinin şanlı səhifələrindən olan, xalqımızın azadlıq mücadiləsinin məntiqi nəticəsi sayılan, müasir dövlətçilik tariximizdə önəmli yerə malik Azərbaycan Xalq Cümhuriyyəti özünün demokratik islahatları ilə müsəlman Şərqinin mayakına çevrildi. 1918-ci il mayın 28-də elan edilən Cümhuriyyət cəmi 23 ay ömür sürməsinə baxmayaraq, böyük bir coğrafiyanın siyasi həyatında mühüm dəyişikliklərə təkan verdi.***

Həyata keçirilən tədbirlər milli dövlətçilik ənənələrinin bərpasına gətirib çıxardı. Qısa bir vaxt ərzində Azərbaycan Xalq Cümhuriyyətinin bütün dövlət atributları yaradıldı - Dövlət himni, üçrəngli Dövlət bayrağı, Dövlət gerbi, milli valyuta və s. Silahlı qüvvələrin formalaşdırılması da çox mühüm əhəmiyyət daşıyırdı. Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu dövr ərzində təhsilin, səhiyyənin, mədəniyyətin, ədəbiyyat və incəsənətin inkişafı ilə bağlı son dərəcə əhəmiyyətli tədbirlər həyata keçirdi. Dövlətin əsas atributlarından olan dil məsələsinə xüsusi önəm verildi, Azərbaycan dili dövlət dili elan olundu. Bir sözlə, qarşısına müstəqil, suveren və demokratik dövlət qurmaq kimi şərəfli vəzifə qoymuş milli hökumət, çox qısa bir müddət ərzində, xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətini Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi kimi xarakterizə edirdi. Lakin bir mühüm məqamı da, xüsusi olaraq, qeyd etmək lazımdır ki, Azərbaycan dövlətçiliyini, milli maraqlarımızı hər şeydən üstün tutan, böyük siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyev hər zaman Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin müstəqillik tarixində mühüm yerə malik olduğunu bildirirdi. Hələ Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyi münasibətilə xalqa müraciət edən Ulu Öndər Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətini Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi kimi xarakterizə edirdi: "Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Gördüyü bir sıra məqsədyönlü işlər Xalq Cümhuriyyəti Hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir".

1920-ci ildə Cümhuriyyətin varlığına son qoyulsa da, müsəlman Şərqində ilk demokratik respublika olaraq bugünkü güclü dövlətimizin sələfi qismində müstəqilliyimizə hüquqi-siyasi və mənəvi əsaslar formalaşdırmışdır. Xalq Cümhuriyyəti mövcud olduğu dövrdə xalqımızda azadlıq, müstəqillik ideyalarını daha da gücləndirdi və onu gələcəyə miras qoydu. 1991-ci ildə xalqımız özünün dövlət müstəqilliyini bərpa etdi, Cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək, bu tarixi varislik üzərində yeni Azərbaycan dövlətini yaratdı.

İlk vaxtlar hakimiyyətdə olan siyasi qüvvələrin səriştəsizliyi az qala yenicə qa-



***Nəriman Əliyev, Milli Məclisin deputatı***

zanılmış müstəqilliyin də məhv olmasına gətirib çıxaracaqdı. Baş alıb gedən siyasi-iqtisadi böhran və hərc-mərclik ölkəni uçuruma sürükləyirdi. 1991-1993-cü illərdə hakimiyyətdə olanlar yeni yaranan müstəqil dövlətçiliyin möhkəmlənməsi üçün, nəinki bir iş görə bilmədilər, əksinə, ölkəni dünyada gedən bütün proseslərdən təcrid etdilər. Problemlər baş alıb gedirdi, həmin problemləri aradan qaldıra biləcək yeganə qüvvə isə, yalnız Heydər Əliyev şəxsiyyəti ola bilərdi. Ölkəni görünməmiş bəlalardan xilas etmək üçün lazım olan enerji, müdriklik və uzaqgörənlik yalnız bu insanda var idi, ümidlər yalnız Ona idi.

## Bu dövlət, bu quruluş 1918-ci ildə yaranmış ilk xalq Cümhuriyyətinin varisidir

1993-cü il iyunun 15-də yenidən hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev öz siyasi uzaqgörənliyi, güclü iradəsi və zəngin dövlətçilik təcrübəsinə arxalanaraq, böhrandan çıxış yollarını müəyyənləşdirdi. Atdığı qətiyyətli addımlar nəticəsində ölkədə tüğyan edən özbaşınalıq aradan qaldırıldı, dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alındı. Təcavüzkar düşmənlə atəşkəs sazişinin bağlanmasından sonrakı şərait dövlət quruculuğu işlərinə başlamaq üçün əlverişli imkan yaratdı...

"Müasir Azərbaycan Heydər Əliyevin şah əsəridir" - xalqımızın dilində artıq zərbməsələ çevrilmiş bu kəlam böyük həqiqətləri özündə əks etdirir. Bu gün Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi əldə etdiyi bütün uğurlar dövlət müstəqilliyinin bəhrəsidir. "... Bu dövlət, bu quruluş 1918-ci ildə yaranmış ilk xalq Cümhuriyyətinin varisidir. Bütün dövlət onun varisidir, bütün respublika onun varisidir, bütün xalq onun varisidir", - deyən Ümummilli Liderimiz Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki rolunu belə dəyərləndirmişdir. Həmin dövrdə əsası qoyulmuş ideyalar sonralar bərpa olunmuş müstəqillik dövründə Heydər Əliyevin müdrik siyasəti və gərgin əməyi nəticəsində reallığa çevrilməyə başlamışdır.

Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında müstəqil vətənimiz sürətlə inkişaf edir. Regional əməkdaşlıq sahəsində ölkəmizin təşəbbüsü ilə həyata keçirilən layihələr uğurla icra olunur. Energetika, nəqliyyat, həmçinin, humanitar sahələrdə bütün təşəbbüslər regional əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Bütün ölkələrlə qarşılıqlı faydalı münasibətlərin dərinləşməsinə xidmət edən xarici siyasət kursu müsbət nəticələrini verməkdədir.

## Ulu Öndər Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan dövləti etibarlı əllərdədir

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını dünya miqyaslı tarixi hadisə adlandırıb: "Çünki müsəlman aləmində ilk demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu tarixi Azərbaycan xalqı yazıb. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, bir daha onu göstərir ki, Azərbaycan xalqı çox istedadlı, vətənpərvər və mütərəqqi xalqdır. Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsi bizim üçün əzizdir. Azərbaycan dövləti və Azərbaycan xalqı onların xatirəsini ehtiramla yaşadır".

Möhtərəm dövlət başçımız, həmçinin, vurğulayıb ki, bu il xalqımız Xalq Cümhuriyyətinin 100-cü ildönümünü böyük qürur hissi ilə qeyd edir və edəcək: "Bu il biz müstəqilliyimizin yüz illiyini qeyd edəcəyik. Yüz il bundan əvvəl müsəlman aləmində, ilk dəfə olaraq, demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır".

Dövlət başçısı deyib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və iki il ərzində fəaliyyəti tarixi hadisədir: "Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri, nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil və müasir Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq. Ancaq onu da qeyd etməliyəm ki, indiki Azərbaycan Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edilə bilməz. Çünki o vaxt çətinliklər də olub, müstəqilliyimiz tam imkan vermirdi ki, Azərbaycan müstəqil siyasət aparsın. İqtisadi çətinliklərimiz olub, torpaq itkilərimiz də olub və bizim tarixi şəhərimiz olan İrəvan Ermənistana verilmişdir. Ona görə, biz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini çox düzgün təhlil etməliyik. Bu müsbət və çətin məqamları gizlətməməliyik. Amma bütün çətinliklərə və əlbəttə ki, bizim üçün sağalmayan yara olan İrəvanın Ermənistana verilməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir. Bunu nəzərə alaraq, mən 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edirəm. İl ərzində həm ölkəmizdə, həm xaricdə bununla əlaqədar bir çox tədbirlər keçiriləcəkdir".

Beləliklə, tam əminliklə vurğulaya bilərik ki, bu gün Azərbaycan xalqı öz azadlıq ideallarının davamlılığına tam əmindir. Çünki Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan dövləti etibarlı əllərdədir. Azərbaycan Prezidenti İlham Əliyev müstəqilliyimizin sükanı arxasında inamla, qətiyyətlə dayanıb və xalqımız Onun ətrafında daha da sıx birləşərək, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində və inkişafında inamla addımlayır.

---

<u>Andrey Lopuşanski:</u>

## "Azərbaycanın ötən 100 ildə əldə etdiyi uğurlar dost ölkə kimi Ukraynanı çox sevindirir"



Azərbaycanın ötən 100 ildə əldə etdiyi uğurlar dost ölkə kimi Ukraynanı çox sevindirir. Bu fikri Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə bağlı AZƏRTAC-a açıqlamasında Ukrayna Ali Radasının deputatı Andrey Lopuşanski söyləyib.

Deputat qeyd edib ki, əsrin əvvəllərində Azərbaycan xalqı necə öz cəsarətini nümayiş etdirib azadlığını əldə etmişdisə, əsrin sonlarında onların davamçıları da öz siyasi iradələrini ortaya qoydular. Azərbaycan öz müstəqilliyini bərpa edərkən qədim dövlətçilik ənənələrinə sadiqliyini nümayiş etdirdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olduğunu bəyan etdi. Müasir Azərbaycanın qurucusu olan Heydər Əliyevin uzaqgörən siyasəti və onun layiqli davamçısı Prezident İlham Əliyevin praqmatik siyasəti ölkənizi dünya dövlətləri arasında nüfuz sahibi edib. Deputat vurğulayıb ki, Azərbaycan və Ukrayna arasında münasibətlər səmimiyyət, dostluq və strateji əməkdaşlıq üzərində qurulub.

## İstedadlı uşaqların vaxtından əvvəl I sinfə qəbulu ləğv edilir

Azərbaycanda valideynlərin və ya digər qanuni nümayəndələrin müraciəti ilə hər təqvim ilinin sonunadək 6 yaşı tamam olan uşaqların da məktəbə qəbul edilməsi təklif edilir. SİA-nın xəbərinə görə, bununla bağlı "Təhsil haqqında" qanuna dəyişiklik edilir. Qanunun 19-cu (Ümumi təhsil) maddəsinin 11-ci bəndinə əsasən, Azərbaycanda ibtidai təhsil 6 yaşdan başlanır. Dəyişikliklə bəndə ikinci cümlə əlavə olunur. Yeniliyə əsasən, valideynlərin və ya digər qanuni nümayəndələrin müraciəti ilə hər təqvim ilinin sonunadək 6 yaşı tamam olan uşaqlar da məktəbə qəbul edilirlər.



Digər dəyişikliklə isə maddənin 12-ci bəndi ləğv edilir. Bu bəndə əsasən, valideynlərin və ya uşaqların digər qanuni nümayəndələrinin arzusu ilə təhsil müəssisəsi xüsusi istedadlı uşaqları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada daha erkən yaşda qəbul edə bilərdi. Qanun qəbul ediləcəyi təqdirdə, bu ildən qüvvəyə minəcək.

## Ukrayna telekanalında Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı xüsusi reportaj yayımlanıb

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə bağlı Ukraynanın "5-ci kanal"ında geniş reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, telekanal 100 illik tariximizlə bağlı Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyevlə müsahibəni təqdim edib. Səfir qeyd edib ki,



Azərbaycan Xalq Cümhuriyyəti dövründə xarici ölkələrdə ilk səfirliklərimizdən biri məhz Kiyevdə açılıb. O dövrdən Azərbaycan və Ukrayna arasında dostluq münasibətləri qurulub. A.Xudiyev qeyd edib ki, Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi xaricdə də təntənəli şəkildə qeyd olunur. Xüsusi reportajda Azərbaycanın Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı tarixi faktlar da yer alıb.




# Merkel Soçidə: geosiyasi alternativ axtarışı?

***Almaniyanın Kansleri Angela Merkel Soçidə Vladimir Putinlə görüşüb. Kütləvi informasiya vasitələrinin yaydığı məlumatlara əsasən demək olar ki, tərəflər qlobal siyasətin aktual məsələlərini müzakirə ediblər. Bu zaman onlar siyasi, geosiyasi və təhlükəsizlik aspektləri ilə yanaşı, iqtisadi sferaya da diqqət yetiriblər. Merkel-Putin danışıqlarının detalları barədə geniş məlumat verilməsə də, aydın olur iki, iki böyük geosiyasi güc dünyada baş verən hadisələrə təsir etmək niyyətindədirlər. Rusiya onsuz da müxtəlif regionlarda fəaldır. Almaniya da son illər aktivliyini xeyli artırıb. İndi onlar üçün ortaq fəaliyyət sahəsinin axtarılıb tapılması önəm kəsb edir. Hələlik bu istiqamətdə əhəmiyyətli irəliləyiş əldə edilməyib. Demək olar ki, bütün istiqamətlərdə fikir ayrılığı mövcuddur. Buraya, ilk növbədə, Suriya müharibəsi, Ukrayna ətrafında münaqişə, "Şimal axını-2" layihəsi, Skripal məsələsi və digərləri daxildir. Ancaq ekspertlər də vurğulayırlar ki, A.Merkelin Soçiyə uçması Almaniyanın Rusiyaya verdiyi önəmə işarə edir. Bu müstəvidə Soçi görüşünün geosiyasi aspektini təhlil etməyə dəyər.***

## "Küskün" Avropa: ABŞ-dan imtina və Rusiyaya yaxınlaşma arasında

Amerikanın xarici siyasətdə atdığı addımlar qlobal vəziyyəti getdikcə daha da gərginləşdirir. Donald Tramp İranla imzalanan nüvə sazişindən çıxıb, ABŞ səfirliyini Qüdsə köçürüb. Hər iki hadisəyə dünya dövlətləri ciddi reaksiya veriblər. Hətta Vaşinqtonun avropalı müttəfiqləri belə bu qərarları müsbət qarşılamayıblar. Onların sırasında Almaniya daha çox narazı görünür. Kansler Angela Merkel diplomatik fəallıq nümayiş etdirir. O, əvvəlcə ABŞ-a səfər edib, sonra isə Rusiyada Vladimir Putinlə görüşüb. Ekspertlər vurğulayırlar ki, Almaniya Kanslerinin hər iki görüşdə apardığı danışıqların detalları gizli saxlanır, lakin KİV-ə sızdırılan informasiyalara əsasən söhbətin nələrdən getdiyini müəyyənləşdirmək olar.

Almaniya rəhbərliyini İran və Fələstin məsələləri narahat edir. İranla imzalanan sazişin pozulması Avropa şirkətlərini çətin vəziyyətə salır. ABŞ onlara qarşı sanksiyalar tətbiq edə bilər. Bunun nəticəsində Avropa ölkələri külli miqdarda maliyyə itirirlər. Bundan əlavə, Almaniyanı məsələnin geosiyasi və təhlükəsizlik aspektləri narahat edir. Bu istiqamətlərdə çoxlu sayda risklər meydana çıxa bilər.

Hər şeydən öncə, beynəlxalq sazişlərə olan inam azala bilər. Amerika indi hansısa sazişdən imtina edirsə, sabah eyni məntiqlə digər böyük dövlətlər özlərinə sərf etməyən istənilən müqavilədən çıxa bilərlər. Buna qarşı hansısa ciddi arqument qoymaq çətin olar, çünki artıq presedent vardır.

Belə bir gedişat bütövlükdə beynəlxalq hüququn dövlətlərarası münasibətlərdə mövqeyini zəiflədə bilər. Təbii ki, bu, başqa məqamlarla yanaşı, beynəlxalq təşkilatların da səmərəli fəaliyyət göstərmək imkanına ciddi zərbə olardı. Onsuz da BMT kimi təşkilat bir sıra məsələlərin həllində acizlik göstərir. Vaşinqtonun son davranışları BMT-nin də nüfuzunu çox aşağı salır.

Almaniyanı narahat edən başqa məqam İranın əks-reaksiya kimi nüvə silahı istehsalını reallaşdıra bilməsi ilə bağlıdır. Tehran əslində artıq bu məsələni milli vəzifə kimi bəyan edib. Belə çıxır ki, çox qısa zamanda Yaxın Şərqdə nüvə silahına malik və bir sıra istiqamətlərdə aqressivlik nümayiş etdirən müsəlman dövləti meydana gələ bilər. Bu prosesin digər müsəlman ölkələrini də eyni addımı atmağa təkan verəcəyini təxmin etmək çətin deyil. Sonucda bir neçə müsəlman ölkəsi nüvə silahına malik olar ki, bu da ümumən dünyada tamamilə yeni bir geosiyasi mənzərə formalaşdırar.

Deməli, Almaniya üçün Qərbin təhlükəsizliyi yeni səviyyədə məzmun kəsb etməyə başlayır. Bu problemin həllində Almaniya kiminlə əməkdaşlığa üstünlük verə bilər? A.Merkelin gedişləri göstərir ki, Berlin Moskvanı arxa plana atmaq istəmir. Bu məqamda bir incəliyi vurğulamaq lazımdır. Məsələ onda deyil ki, A.Merkel Vaşinqtondan sonra dərhal Soçiyə uçmaqla Rusiya ilə müttəfiqlik niyyətində olduğunu nümayiş etdirir. Düşünürük ki, Berlin belə bir mövqedən uzaqdır. Ancaq ünvan kimi Rusiyanın seçilməsi Avropa İttifaqının Kreml ilə olan münasibətlərə çox önəm verdiyini göstərir. A.Merkel V.Putinlə problemləri müzakirə edə bilər. Bunun əsasında da Avropanın təhlükəsizliyi ilə bağlı müəyyən ortaq nəticəyə gəlinər. Həm də o səbəbdən ki, Aİ artıq ABŞ-ı özünün təhlükəsizliyinin təminatçısı kimi qəbul etmək istəmir. A.Merkel bir neçə dəfə bəyan edib ki, Avropa öz başına çarə qılmalıdır.

## Qüvvələr nisbəti: dəyişə bilərmi?

Bu tezisdən çıxış edərək, Angela Merkelin Soçiyə səfərinin geosiyasi incəlikləri üzərində düşünmək olar. Belə görünür ki, Almaniya ABŞ-ın təhlükəsizlik çətirindən imtina edəndən sonra Rusiya ilə münasibətləri yenidən qura bilər. Buraya Avropa şirkətlərinin Rusiya ilə əməkdaşlığı bərpa etməsi də daxil ola bilər. Həmin kontekstdə "Şimal axını-2" layihəsi ətrafında A.Merkellə V.Putinin müzakirə aparması xeyli düşündürücüdür. KİV-də yayılan məlumata görə, Almaniyanın Kansleri Ukraynanın zərər görməməsi məsələsini qaldırıb. V.Putin isə bəyan edib ki, əgər avropalı tərəfdaşlar Ukrayna ərazisindən keçən enerji xəttinə ehtiyac duysalar, o, işləyəcək. Yəni, Rusiya üçün bu məsələ siyasi deyil, iqtisadi məna kəsb edir.

Bununla bağlı Rusiya Prezidenti təminat verir ki, "Şimal axını-2" layihəsinin reallaşması enerji nəqlinin diversifikasiyasından başqa bir məqsəd güdmür. Doğrudan da, Moskvaya Ukrayna istiqamətində qaz nəqlinin dayandırılması sərf etmir, çünki bu halda həmin ölkəyə təsir rıçaqlarından birini itirmiş olur. Rusiya üçün iqtisadi güc önəm daşıyır. Bundan başqa, Ukrayna istiqamətində qaz nəqlinin dayanması həmin məkana alternativ mənbələrin, həm də Rusiya ilə rəqabət aparan dövlətlərin müdaxiləsi deməkdir.

Bunlar onu göstərir ki, Moskvaya Ukrayna istiqamətini bağlamaq deyil, ondan maksimum dərəcədə faydalanmaq sərf edir. Rusiya üçün bu məsələyə Aİ-nin münasibəti maraqlıdır. Brüssel əslində Rusiyadan enerji asılılığından qurtulmaq niyyətindədir. Bütövlükdə bunu reallaşdırmaq mümkün deyil. Xüsusilə Amerikanın son zamanlar atdığı addımlar xeyli risklərin meydana çıxması ehtimalını artırıb. Avropa Vaşinqtonun iradəsi ilə hərəkət etsə, yaxın perspektivdə tənha qala bilər. Ancaq o, tamamilə Rusiyadan asılılığı da qəbul etməz. Bu bağlılıqda Aİ də enerji nəqlinin diversifikasiyasında maraqlıdır. Alternativ enerji nəqli marşrutları nə qədər çox olarsa, Avropanın manevr etməsi üçün də bir o qədər geniş məkan yaranmış olar.

Bütün bunlara görədir ki, Soçidə Merkel-Putin görüşündə "Şimal axını-2" layihəsinin də yer alması tamamilə təbii görünür. Tərəflər bu kimi məsələləri Suriya münaqişəsi kontekstində müzakirə ediblər. Suriyada Rusiyanın üstünlük əldə etməyə başlaması Amerika ilə yanaşı, Avropanı da narahat edir. Çünki Yaxın Şərqdə Rusiyanın geosiyasi üstünlüyü avtomatik olaraq Aİ-nin qlobal geosiyasi güc olaraq mövqeyinə təsir edir. Brüssel bunu qəbul edərmi? Çətin, çünki belə olduğu halda Brüsselin dünya miqyasında geosiyasi fəaliyyətində müəyyən məhdudiyyətlər meydana gələ bilər. Bu isə, ilk növbədə, Berlinin qlobal geosiyasi proseslərdə tutmaq istədiyi aparıcı rol məqsədinə uyğun gəlmir.

Hələlik Aİ ilə Rusiya Suriya məsələsində ortaq mövqeyə malik deyillər. Burada Ukrayna münaqişəsinin də ciddi rol oynadığını vurğulamaq lazımdır. Ukraynada vəziyyət əvvəlki kimi gərgin olaraq qalır. Donbasda döyüşlər davam edir. Tərəflər bir-birinə ağır zərbələr endirirlər. Belə təəssürat yaranır ki, Rusiya orada yerini hərbi cəhətdən möhkəmləndib və geri çəkilmək fikri yoxdur. Krım körpüsünün çəkilməsi isə Kremlin uzağa gedən planlarından xəbər verir. Bir sözlə, Rusiya Ukrayna məsələsində hələlik bir addım da güzəştə getməyib. Bunun fonunda A.Merkellə V.Putinin Minsk razılaşmalarından danışmaları və "Normand formatı"na qayıtmağın zəruriliyini vurğulamaları müəyyən məna kəsb edir.

Konkret desək, bu, onu göstərir ki, Avropa ölkələri (Böyük Britaniya, Fransa və Almaniya) Ukrayna məsələsində Rusiyaya təzyiq göstərmək taktikasının səmərəsizliyini etiraf etmiş olurlar. Onlar yenidən masa arxasına oturmaqla problemi həll etməyə üstünlük verirlər. Lakin bu prosesin nə qədər sürəcəyini proqnozlaşdırmaq çətindir. Görünən odur ki, Rusiya ilə Avropa arasında qüvvələr nisbəti kəskin dəyişməyincə, tərəflərin bir-birinə güzəşt etməsi imkansızdır. Yəni, Ukrayna böhranı hələ uzun illər qalmalı olacaq.

Vurğulanan məqamlar onu göstərir ki, A.Merkelin Soçidə V.Putinlə görüşməsinə fövqəladə geosiyasi əhəmiyyət vermək tələskənlikdir. Tərəflər daha çox fikir mübadiləsi edib gələcəkdə meydana çıxa biləcək ortaq maraqların müəyyənləşməsi aspektində müzakirə aparıblar. Müəyyən mənada bunu diplomatik manevrlər kimi də qiymətləndirmək olar.

Ancaq bu səfərin qlobal geosiyasətin dinamikası baxımından əhəmiyyətini də inkar etmək olmaz. Görünür, dünya daha çox çoxqütblülük modelinə doğru meyillidir. Bir sıra Avropa dövlətlərinin ABŞ-ın hegemon rolundan imtina etmək fikrinə düşmələri bu prosesin ilk əlamətlərindəndir. Lakin hələ irəlidə çox proseslər var.

**Newtimes.az**

# "Azərenerji" ASC: tarixi inkişaf yolu və strateji hədəflərə doğru"

*Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur və əsas hədəf çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmini, əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. Müasir dövrdə beynəlxalq aləmdə ən aktual məsələlərdən biri enerji daşıyıcıları uğrunda dünya ölkələrinin rəqabətidir. Bu rəqabətdə üstünlük qazanmaq, təbii ki, dünyada müəyyən dərəcədə söz sahibi olmağa, həmçinin dövlətlərin öz iqtisadi, siyasi, eləcə də hərbi gücünün artırılmasına təsir göstərir. Çünki getdikcə tükənən enerji ehtiyatları alternativ metodlar kəşf olunmayana qədər dövlətləri özündən asılı vəziyyətə salır.*

## "Azərenerji"nin tarixi...

Tarix boyu çətin sınaqlardan keçən Azərbaycan, bütün çətinliklərə baxmayaraq, müstəqil elektrik enerji sistemini qurmağa malik olubdur. Bu sistemin əsası ötən əsrin 70-ci illərində qoyulubdur. Hələ Sovetlər dönəmində enerji resurslarının həcminə görə zəngin olan Azərbaycan xalqının yalnız cüzi tələbatı ödənmişdir. 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra respublikanın sosial-iqtisadi həyatının mühüm sahələrindən biri olan elektik enerjisi sisteminin sürətli inkişafını təmin etmək məqsədilə təxirəsalınmaz tədbirlər görülmüş, irimiqyaslı layihələr həyata keçirilmişdir. Ümummilli Lider Heydər Əliyevin, bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hələ ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq respublikanın elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına ödənilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə başlanmışdı. "Azərbaycan" İES-in birinci enerji bloku 1981-ci il oktyabrın 20-də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə istifadəyə verilmiş, bu möhtəşəm hadisə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. 80-ci illərin əvvəllərində inşası, hətta SSRİ miqyasında ümumxalq tikintisi səviyyəsinə qalxmış bu əzəmətli tikili hazırda da Ümummilli Liderin bütün qurub-yaratdıqları kimi, Onun nurlu şəxsiyyətinin möhtəşəm yadigarıdır. Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində inşaat işlərinə ən peşəkar mütəxəssislər cəlb olunmuş və müasir texniki vasitələrdən istifadə edilmişdir. Heydər Əliyev mövcud generasiya güclərinin və şəbəkə təsərrüfatının sürətli inkişaf mərhələsinə qədəm qoyan ölkə iqtisadiyyatının tələblərinə cavab vermədiyini müəyyənləşdirmiş və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirmişdir. Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində - 1993-cü ildə 10.05.1993-cü il tarixli Fərmanına əsasən, Azərbaycan Respublikası Nazirlər Sovetinin 301 saylı 14.06.1993-cü il tarixli Sərəncamı ilə Azərbaycan SSR Energetika və Elektrikləşdirmə "Azenerji" İstehsalat Birliyi Azərbaycan Respublikası Elektroenergetika və Elektrikləşdirmə "Azərenerji" Dövlət Şirkətinə çevrilmişdir. Həmçinin, 1996-cı ildə Azərbaycan Respublikası Prezidentinin 423 saylı 17.09.1996-cı il tarixli Fərmanına əsasən, ilkin mərhələdə səhmləri 100 faiz dövlətə məxsus olmaqla, Azərbaycan Respublikası Dövlət Əmlak Komitəsinin 200 saylı 28.12.1996-cı il tarixli Sərəncamı ilə "Azərenerji" Açıq Tipli Səhmdar Cəmiyyəti təsis edilmişdir və 17.03.1997-ci il tarixdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.

Bütövlükdə isə, Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanda 3500 MVt-a yaxın generasiya gücü işə salınmışdır. Elektrik enerjisi istehsalı isə təxminən 12 milyard kilovat-saatdan 22 milyard kilovat-saatadək, yəni 1,8 dəfədən çox artmışdır. Ölkəmizdə iqtisadiyyatın sürətli inkişafı, əhalinin həyat tərzinin yaxşılaşması nəticəsində istehlak 11,3 milyard kilovat-saatdan 23 milyard kilovat-saata kimi, yəni iki dəfədən çox artmışdır. Bununla yanaşı, Azərbaycan elektrik enerjisi sisteminin qonşu ölkələrin enerji sistemləri ilə sıx əlaqəsi təmin olunmuşdur. Bu, həm də ölkələrimiz arasında qarşılıqlı münasibətlərin daha da inkişafına, regionda sülhün, sabitliyin və təhlükəsizliyin qorunubsaxlanmasına şərait yaradan ciddi amillərdəndir.

Yüksək sürət tempi ilə inkişaf edən Azərbaycanın belə əlamətdar tarixə qədəm qoyması, regional gücə çevrilməsi bütün digər nailiyyətlərlə birgə, həm də məqsədyönlü enerji siyasətinin və perspektivləri bir neçə yüzilliyə hesablanmış enerji strategiyasının təntənəsidir. Xəzərin ölkəmizə aid sektorundakı zəngin karbohidrogen ehtiyatları və həmin resursların alternativ marşrutlarla dünya bazarlarına çatdırılması istiqamətində həyata keçirdiyi müstəqil enerji siyasəti hesabına Azərbaycan bu gün regionda və dünyada geosiyasi mövqeyini xeyli möhkəmləndirmiş, transmilli, qlobal əhəmiyyətli enerji layihələri sayəsində təhlükəsizlik, sabitlik və inkişaf məkanına çevrilmişdir. Milli enerji sektorunu hər cür asılılıqdan çıxarmaqla özünün enerji təhlükəsizliyini tam təmin etmiş, Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyinə, enerji mənbələri və marşutlarının şaxələnməsinə töhfə verən iri enerji mərkəzi statusunda çıxış etməkdədir.

Azərbaycan dövlətinin enerji sektorunda əldə etdiyi nəticələrin ümumiləşdirilərək təhlilə cəlb edilməsi, bu sahədə yeni imkan və perspektivlərin nəzərdən keçirilməsi baxımından da yeni bir fürsətdir. Azərbaycan, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə böyük töhfələr verir. Ölkəmizin təşəbbüsü və iştirakı ilə regionda qlobal enerji layihələri həyata keçirilir. Bu mənada, ölkəmizdə iqtisadiyyatın, onun sosial həyatının istər ötən əsrin 70-80-ci illərindəki, istərsə də müstəqillik dövründəki dinamik inkişafı bir çox mühüm amillərlə yanaşı, elektrik enerjisi sistemi ilə də bağlıdır. İrəli sürülən bütün alternativ təşəbbüslərə rəğmən, dünyanın mövcud geosiyasi mənzərəsini və müasir qlobal çağırışları müəyyənləşdirən başlıca amil kimi yenə enerji çıxış edir. Bu amilin yaratdığı yeni geosiyasi reallıqlar enerji təhlükəsizliyi, enerji asılılığı kimi məsələlərin siyasi məzmununu daha da gücləndirməklə yanaşı, istər enerji resurslarının hasilatçısı və ixracatçısı, istərsə də idxalatçısı olan dövlətlərin öz enerji siyasətinə daha geniş aspektdə baxmasını zərurətə çevirmiş, enerji asılılığından qurtuluşu hər bir ölkənin müstəqilliyinin uzun bir dövr üçün son dərəcə vacib şərti kimi müəyyənləşdirmişdir.

## "Azərenerji"nin inkişaf yolu...

Hər zaman olduğu kimi, bu dəfə də Prezident İlham Əliyevin uzaqgörən strategiyası nəticəsində əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasətini böyük müvəffəqiyyətlə həyata keçirməsi nəticəsində bu gün Azərbaycan dünyada çox etibarlı ölkə kimi tanınır. İndi Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminində mühüm rola malikdir. Bunu təsdiq edən ən böyük amillərdən biri 2012-ci ildə Azərbaycanla Türkiyə arasında dünyanın ən böyük enerji layihələrindən olan TANAP layihəsinin icrasına başlanmasıdır. Nəhayət, 2014-cü il sentyabrın 20-də Azərbaycanın yeni tarixinə və enerji siyasətinə qızıl hərflərlə yazılan başqa bir möhtəşəm hadisə baş verdi - XXI əsrin qlobal enerji layihəsi adlandırılan "Cənub Qaz Dəhlizi"nin təməli qoyuldu. 2004-cü ilin 21 oktyabr tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" təsdiqləndi. Həmin proqramda nəzərdə tutulan tədbirlərin icra olunması üçün müxtəlif qurumlara tapşırıqlar verilmişdi. Proqramda Azərbaycanın alternativ enerji potensialı kimi külək, günəş, biokütlə, geotermal enerjisi, kiçik su-elektrik stansiyaları göstərilib. Proqramdan irəli gələn vəzifələrlə bağlı xeyli iş görülüb. İlk növbədə, real resurslar və mövcud potensial müəyyənləşdirilmişdir. Aparılan hesablamalara görə, Azərbaycanda tam şəkildə bu enerjidən istifadə etmək üçün real imkanlar mövcuddur. Yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti Azərbaycanda ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə edilməsinə imkan verir. Ölkənin təbii potensialından istifadə etməklə alternativ enerji mənbələrinin elektrik və istilik enerjisi istehsalına cəlb edilməsi elektroenergetikanın gələcək inkişaf istiqamətlərində mütərəqqi dəyişikliklər etməyə imkan yaradar. Proqrama əsasən, elektrik enerjisinin istehsalında alternativ enerji mənbələrinin potensialını müəyyənləşdirmək, bərpa olunan enerji mənbələrini istismara cəlb etməklə, ölkənin enerji resurslarından istifadənin səmərəliliyini yüksəltmək, yeni enerji istehsalı sahələrinin yaradılması hesabına əlavə iş yerlərinin açılmasını təmin etmək, Azərbaycanda ənənəvi enerji mənbələrinin mövcud ümumi gücü nəzərə alınmaqla, alternativ enerji mənbələrinin hesabına enerji gücünün artırılması və bununla da, ölkənin enerji təhlükəsizliyinin təminatının yüksəldilməsinə nail olmaqdır.

## "Azərenerji" strateji hədəflərə doğru...

Azərbaycanda enerji sisteminin müasir standartlara uyğun yenidən qurulması, ölkəmizin müxtəlif regionlarında yeni generasiya güclərinin inşa edilməsinin nəticəsidir ki, özünün elektrik enerjisinə olan tələbatını tam ödəməyə nail olmuş, həm də bölgədə elektrik enerjisi ixracatçısı mövqeyinə çıxmaq imkanları əldə etmişdir. Azərbaycanın xarici siyasətində enerji amili öz əhəmiyyətli mövqeyini qorumaqda davam edir. Azərbaycan bu siyasətlər nəticəsində hazırda öz enerji təhlükəsizliyini təmin edə bilir, eləcə də bəzi digər dövlətlərin enerji təhlükəsizliyində də əsas rollardan birini oynayır. Enerji amili Azərbaycan ilə Gürcüstan və Türkiyə arasındakı münasibətlərin əsasını təşkil etməklə yanaşı, Azərbaycan ilə Avropanın əsas dövlətləri, eləcə də, bəzi Şərqi Avropa dövlətləri arasındakı münasibətlərdə də vacib rol oynayır.

Qeyd etmək yerinə düşər ki, bu cür böyük layihələrin həyata keçirilməsi xalqımızın rifahını daha da yaxşılaşdırmaqla yanaşı, Azərbaycanı çox önəmli beynəlxalq oyunçuya, həlledici söz sahibinə çevirir, ölkəmizin siyasi və iqtisadi maraqlarını təmin edir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında respublikanın hər yerində sürətlə davam etdirilən genişmiqyaslı quruculuq və yeniləşmə işləri bütün dünyaya nümayiş etdirir ki, inkişafın Azərbaycan modeli təsadüfi xarakter daşımır.

***Mamed Bağırov***
***"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir***

# Məhsulu xəyanət olan qrant bazarının tacirləri

***Azərbaycan əleyhinə aparılan kampaniyada dağıdıcı müxalifət bir-biri ilə sanki yarışa giriblər. Çirkin əməlləri müqabilində hər il jurnalist, yaxud siyasətçi adı ilə bəzi beynəlxalq qurumlardan böyük miqdarda qrant alanlar arasında qarşıdurma pik həddə çatıb. Dağıdıcı müxalifət və "5-ci kalon" sosial şəbəkələrdə bir-birlərinin təhqir etməkdən, söyməkdən belə çəkinmirlər və açıq şəkildə qrant davası aparırlar.***

Bu il mayın 9-da ABŞ Konqresində Helsinki Komissiyasının Azərbaycanla bağlı keçirilən dinləmələrində çıxış edən Emin Millinin Əli Kərimli və onun timsalında dağıdıcı müxalifət haqqında səsləndirdiyi tənqidi fikirlər rezonans doğurub. Daha dəqiq desək, E.Millinin radikal müxalifətin, eyni zamanda, onun satellit QHT-lərinin "haqqına" göz dikməsi və ayrılan qrantları təkbaşına mənimsəmək cəhdi digər "qrantyeyən"lərin, qəzəbinə səbəb olub. Əsl mübarizə də elə bundan sonra başlayıb. Sosial şəbəkələr tərəflər üçün virtual kollizeyə çevrilib və qrant uğrunda savaşa start verilib. Bununla da, tərəflər özlərini bir daha ifşa ediblər və hər birinin iç üzü növbəti dəfə açılıb. Bir daha təsdiq etmiş olublar ki, aldıqları qrant müqabilində Qərbdəki ağalarının sifarişlərini yerinə yetirərək dövlətimiz, onun milli maraqları əleyhinə mübarizə aparmaqdan heç biri çəkinmir.

Göründüyü kimi, qrant müqabilində Azərbaycan əleyhinə fəaliyyət, öz doğma vətəninə qarşı əks-mövqe sərgiləməkdən çəkinməyənlərin utanmaq fikri də yoxdur. Görəsən, fərqində deyillərmi ki, əməlləri xəyanətdən başqa bir şey deyil və əcnəbinin pulu və qrantları müqabilində satdıqları onların vətənidir? Fərqində deyillərmi ki, ayrılan qrantlar ermənilərin, ermənipərəstlərin pullarıdır və onlar bu vəsaitləri yalnız ölkəmizə zərər vermək, stabilliyini pozmaq müqabilində paylayırlar? Onlar dərk etməlidirlər ki, pulu kim verirsə, musiqini də o sifariş edir və bu səbəbdən, qrant aldıqları zaman, yaxud o qrantları əldə etməklə ermənilərin çaldığı havaya oynamaq məcburiyyətində qalırlar. Bu da, öz növbəsində, xəyanətə açılan qapıdır, çünki qrantı ayıran ermənilər, yaxud erməni lobbisi, eləcə də, ermənipərəst qüvvələr Azərbaycanın çiçəklənməsindən narahatdırlar. Bütün imkanlarını səfərbər edib, ölkəmizə və onun nüfuzuna zərbə vurmaq marağındadırlar. Belə olan halda, onların ayırdığı qrantlarla maliyyələşən radikalların özləri də həmin maraqlardan çıxış etmiş olurlar və Azərbaycan əleyhinə fəaliyyət göstərən şəbəkənin üzvlərinə çevrilirlər. Bu da, öz növbəsində, xəyanətə sürükləyir. Ancaq Azərbaycanın düşmənləri ilə əlbir olan hər kəs bilməlidir ki, öz xəyanətləri ilə ən böyük şərəfsizliyə imza atmış olurlar.



## Daha çox xəyanət edib, daha çox qrant almaq yarışmasının iştirakçıları cəmiyyətə hansı dərsi keçmək niyyətindədirlər?

Qondarma hüquq-müdafiəçisi Xədicə İsmayılla ABŞ-da yaşayan jurnalist Sevinc Osmanqızı arasındakı didişmə bir çox hadisələrə aydınlıq gətirmək, xəyanəti, qrant mübarizəsini təsdiq etmək üçün yetərlidir. S.Osmanqızının "Meydan TV"-nin direktoru olmaq üçün mübarizə apardığını deyən X.İsmayılı da qarşı tərəf "xəstə" adlandırıb. Əslində, elə hər ikisi də xəstədir, özü də qrant xəstəsi, xəyanətkar və satqın mərəzdirlər. Hər biri qarşı tərəfi ittiham etməyə qalxıb və öz gözündəki tiri görməsə də, Azərbaycan ictimaiyyəti hər ikisinin və onların timsalında bütün "qrantyeyən"lərin simasına bələddir.

Görəsən, qrant üçün bir-birini didib-parçalamağa hazır olan və yaşamaq uğrunda mübarizədə amansız olan bu dağıdıcı ünsürlər hansı üzlə ictimaiyyətə demokratik cəmiyyət, stabillikvə inkişaf söz verir? Kim daha çox xəyanət edib, daha çox qrant alacaq yarışmasının iştirakçıları Azərbaycan cəmiyyətinə hansı dərsi keçmək niyyətindədirlər? Kimi aldadıb mübarizəyə səsləməyi düşünürlər və dərk etmirlərmi ki, hamı çox yaxşı başa düşür ki, qənimət üçün bir-birlərini təhqir edən müxalifət başbilənləri, fəallar və "5-ci kolon" təmsilçiləri öz xalqını, dövlətini düşünə bilməz. Əksinə, qrant uğrunda bir-birinə qənim kəsilən bu insanların daha şirnikdirici təkliflər qarşısında gözlərini qırpmadan öz vətənlərini, dövlətlərini satacaqlarına da şübhə yoxdur və Azərbaycan cəmiyyəti anti-milli qüvvələrin, məhz bu hərəkətlərini uzun zamandır ki, müşahidə edir.

Qrant əldə etmək uğrunda didişmələr sübut edir ki, bu insanların məqsədi heç də Azərbaycanda insan haqları və demokratiyanın bərqərar olması deyil. Müxtəlif problemlər uyduran və bu problemlərin həllində özlərini vacib və gərəkli insan kimi qələmə verməyə çalışanlar qrant bazarının alverçiləridir. Onların indi sayı o qədər artıb, bazarda o qədər basabas yaranıb ki, hər biri digərini sıxışdırıb bu bazardan çıxarmaq üçün əldən-ayaqdan gedir. Çünki bu bazarda əcnəbi ağalara daha yaxın olmaq, daha çox yaltaqlanmaq, daha rahat satmaq, özü də vətəni satmaq üçün rəqabət mühiti var. Məhsulu xəyanət olan qrant bazarının tacirləri daha geniş mövqe, daha çox qrant, yeni vəsait qazanmaq üçün birinin digərini hədəfə alması və bu çirkin bazardan kənarlaşdırmaq cəhdi diqqətdən yayına bilməz. Buna görə də, Azərbaycan xalqı, ictimaiyyət bu ünsürlərin simasına çox yaxşı bələddir. Təkcə X.İsmayıl xəstə deyil, onu xəstə adlandıran S.Osmanqızı da, digər "5-ci kolon" ulduzları da, radikallar da bu "qrantyemək" xəstəliyinə mübtəladır və bunu bütün Azərbaycan cəmiyyəti yaxşı bilir. Çox yaxşı bilir ki, qrant naminə bir-birinin az qala ətini yeyən bu dırnaqarası demokratlardan yaxşı heç nə gözləmək olmaz və təbii ki, onların da ictimai dəstəyə zərrə qədər gümanı ola bilməz.

***İnam HACIYEV***

# Müxalifətdaxili münasibətlər düşmənçilik müstəvisinə yüksəlir

## *Partiya sədrləri arasında yeni qarşıdurmanın əsası qoyulur*

***Dağıdıcı müxalifət cinahında baş verən qarşıdurmalar və çəkişmələr fonunda diqqət çəkən əsas mövzulardan biri də müxalif başbilənlərinin bir-birini ittiham etməsi, birinin digərini satqınlıqda və xəyanətdə günahlandırmasıdır.***



Vəziyyətin yenidən gərginləşməsi, onu deməyə əsas verir ki, növbəti mərhələdə müxalif partiyaların parçalanması qaçılmazdır. Maraqlıdır ki, əsasən, AXCP-Müsavat yetkililəri arasında yenidən münasibətlərin gərginləşməsindən öz məqsədləri üçün istifadə edib, önə çıxmamağı planlaşdıran partiya sədrləri üzə çıxmağa başlayıb. Yəni kölgədə olan partiyalar müxtəlif ideya və təkliflərlə gündəmə gəlməyə, ən azı, mətbuatın diqqət mərkəzinə çevrilməyə çalışırlar. Bu səbəbdən də, müxalifətin texnoloqlarından olan AXP sədri Pənah Hüseyn müxalifəti yenidən birləşməyə, bir olmağa çağıran ideyalarla çıxış edib. Artıq KAXCP sədri Mirmahmud Mirəlioğlu, "Ümid" sədri İqbal Ağazadə, ADP sədri Sərdar Cəlaloğlu, "VİP" sədri Əli Əliyev P.Hüseynin təklifinə, könülsüz də olsa, razılıqlarını bildiriblər. Artıq S.Cəlaloğlu ilə Ə.Əliyev bir araya gələrək, ADP-"VİP" birliyinin yarandığını elan ediblər. Amma maraqlı məqam "birləşmə" məsələsində P.Hüseynin qeyri-səmimi olduğu bu vəziyyətdə görünür. Çünki müxalifətin birləşməsi təklifi ilə çıxış edən P.Hüseyn niyə özü ADP-"VİP" birliyinə qoşulmaqla daxili stereotipləri dağıtmağa meyil göstərməyib? Yoxsa S.Cəlaloğlu və ya Ə.Əliyevlə yol getməyi özünə sığışdırmır? Və yaxud bir zaman "Qarabağ" blokunda S.Cəlaloğlu ilə eyni maraqları bölüşmüş İ.Ağazadə niyə ADP -"VİP" birliyini "çürümüş kötük, uğusuz partiya sədrlərinin mənasız birliyi" adlandırıb? İ.Ağazadənin ittihamı, onu deməyə əsas verir ki, o, bacarığından daha böyük iddialara düşüb. Çünki İ.Ağazadə müəyyən dövr dağıdıcı müxalifət düşərgəsində özlərini "ana müxalifət" kimi təqdim edən qüvvələrin kurasiyasında çalışmaqla, gələcəkdə ona "böyük ümidlər" də veriblər.

## Qarşılıqlı ittihamlar düşərgədaxili böhranlı durumu daha da gərginləşdirir

Real fakt ondan ibarətdir ki, istər özlərini böyük adlandıran, istərsə də meydana çıxıb, mövqe əldə etməyə ümid bəsləyən müxalif ünsürlər heç zaman arzularında olduqları iddialarını reallaşdıra bilməyəcəklər. Çünki ideya və təkliflər fərqli olsa da, müxalif ünsürlər eyni şəxslərdir. Bu baxımdan, ilk baxışdan diqqəti cəlb edən ideyalar köhnə təfəkkürlü müxalif şəxslər tərəfindən irəli sürüldüyündən, onun uğur qazanması da mümkünsüz olur. Misal olaraq, "DUH", "DUB", "SİDSUH", "Azadlıq" siyasi bloklarının yaranmalarından az sonra parçalanaraq, tarixin arxivinə göndərilmələrini göstərmək olar. Digər tərəfdən, dağıdıcı müxalifətin cəmiyyət tərəfindən qəbul edilməməsinin konkret səbəbləri də var. Başlıcası hakimiyyətə gəlmək uğrunda anti-Azərbaycan dairələrə Dağlıq Qarabağı ermənilərə güzəştə gedəcəklərini vəd etmələri, ölkənin milli mənafeyini özlərinin və xidmət etdikləri qüvvələrin korporativ maraqlarına qurban verməyə hazır olmaları, məram və məqsədlərini anlamayan bir neçə gənci təxribatlar törətməyə təhrik etmələri və bu kimi səbəblərlə əlaqləndirmək olar. Qərb dövlətlərinin Bakıdakı səfirliklərində keçirdikləri görüşlər və Azərbaycanın maraqlarının satılmasına cəhdlərin göstərilməsi, dağıdıcı müxalifətin xalqın gözündən düşməsinin başlıca səbəbləri sırasına aid etmək olar. Mövcud faktlara baxmayaraq, fəaliyyətini qərəzli xarici dairələrin dağıdıcı maraqlarının təmin olunması missiyası üzərində quran dağıdıcı müxalifət Azərbaycanda xaos yaratmaq, təkmil struktur elementlərinə malik olan və möhkəm əsaslara söykənən siyasi sistemin sabitliyini sarsıtmaq üçün ən müxtəlif çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinmir. Bu da dağıdıcı müxalifətin çirkin və yaramaz siyasətinin dəyişməsinin mümkün olmadığını göstərir. Bu cür müxalifət məhvə məhkumdur, necə ki, bunun artıq bütün elementləri açıq şəkildə görünməkdədir. Yəni müxalif partiyalar parçalanma mərhələsini başa vurub, məhvolma dövrünə adlayıblar. Yəqin ki, yaxın günlərdə hansısa müxalifət partiyasının fəaliyyətini dayandırdığını və ya başqa partiyaya transfer olunması barədə mətbuatda bəyanata rast gələcəyik.

***İ.ƏLİYEV***

# "Əli Kərimli 30 ildir ki, siyasi bataqlıqda çabalayır"

***Müxalifət partiyaları daxilində ciddi konfliktlərin, qarşıdurmaların yaşandığı bir məqamda, bəzi müxalif texnoloqlar yeni blok və qurumların yaradılması ideyası ilə çıxış edirlər. Bu isə, onların müxalif düşərgədə yaranan süstlükdən istifadə edərək, önə çıxmaq istəyi kimi başa düşülür.***

Bizimlə söhbətində isə, BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı müxalifət düşərgəsində yeni qurumun yaradılmasının mümkünsüz olduğunu bildirdi: "Riyaziyyatda belə bir düstur var: toplananların yeri dəyişəndə, cəm dəyişmir. Demək olar ki, bu günə qədər müxalifət düşərgəsində yaradılan qurumlar eyni şəxslər tərəfindən təsis olunub və idarə edilib. Artıq 30 ildir ki, cəmiyyət dağıdıcı müxalifəti təmsil edən şəxsləri çox yaxşı tanıyır. Demək olar ki, cəmiyyət müxalifətin bu illər ərzində nə etdiyini, kimə xidmət göstərdiklərini onların özlərindən yaxşı bilir. Bu baxımdan da, müxalifətçilərin yenidən hər hansı bir qurum yaratmaları müxalifət daxilində irəliyə doğru heç nəyi dəyişə bilməz. Müxalifət partiyalarına rəhbərlik edən şəxslərin özləri dəyişilməlidirlər. Biz bu gün dünyanın inkişaf etmiş ölkələrinə baxsaq, rast gələrik ki, 30 illik müxalifəti təmsil edən bir təşkilat və yaxud bir siyasi lider olsun. Hətta heç inanmıram ki, Afrikada belə AXCP sədri Əli Kərimli tipində biri olsun ki, 30 il uğursuzluğa düçar olduğu halda,



yenə də eyni bir siyasəti aparsın. AXCP sədri olan Ə.Kərimlinin uğursuzluğunun da əsas səbəbi öz maraqları üçün dostlarına, sədrinə, liderinə, hətta onun üçün sinəsini qabağına vermiş adamlara xəyanət edir. Bir sözlə, Afrikada belə Əli Kərimli tipli bir şəxsin olması qeyri-mümkündür".

N.Orduxanlı onu da bildirdi ki, bu gün müxalifət düşərgəsində olan partiya sədrləri oturduqları yerdən zəli kimi yapışıblar və həmin yerlərindən qopmaları qeyri-mümkündür: "Yəni uğursuz siyasət aparmaları belə onlar üçün maraqlı deyil. Təki öz yerlərində qalsınlar. Demək olar ki, Ə.Kərimli öz doğma oğluna belə oturduğu sədrlik kreslosunu güzəşt etməz. Bütün bunlar da Ə.Kərimlinin şəxsi ambisiyalarından doğur. Bu gün baxsaq, görərik ki, Ə.Kərimlinin yanında özündən başqa heç kəs qalmayıb. Yəni Ə.Elçibəyin zamanında partiya rəhbərliyində olan şəxslərin heç biri bu gün Ə.Kərimlinin yanında deyil. Həmin şəxslərin hamısı Ə.Kərimlidən ayrılıb gediblər. Hətta AXCP-ni və Ə.Kərimlini tərk edənlər də onu xəyanətdə, öz maraqlarına xidmət etməkdə ittiham edib, satqınçılıqda suçlayıblar. Cəmiyyətdə satqın və xəyanətkar imici qazanan Ə.Kərimlinin bir prinsipi var: xaricə satılmaqla daha çox pul qazanmaq".

N.Orduxanlı, onu da bildirdi ki, müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyalarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa onlar da nəyə isə nail ola biləcəklər: "Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. Təəccüblü məqam odur ki, həmin liderciklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu bürüzə vermək istəmirlər. Bu isə, onların faciəsidir".

***GÜLYANƏ***

# Xalq Cümhuriyyətində insan hüquqlarının müdafiəsi sahəsində demokratik qanunlar qəbul edilib

**_"Azərbaycan" sözü də, ilk dəfə olaraq, təkcə coğrafi ərazi kimi deyil, həm də dövlət adı statusunda, məhz Cümhuriyyət dövründə rəsmiləşdi. Respublika quruluşlu bu demokratik dövlətdə öz zamanını xeyli qabaqlamışdı. O vaxtlar, nəinki Şərq, hətta inkişaf etmiş Avropa ölkələrinin çoxunda demokratik parlament və digər dövlət təsisatları tam təşəkkül tapmamışdı. Azərbaycan parlamenti hələ o zaman çoxpartiyalı sistem üzrə formalaşmağa başlamışdı._**

Azərbaycan Xalq Cümhuriyyətini ərsəyə gətirən fədakar insanlar mükəmməl təhsil almış, öz dövrünün sivil dəyərlərinə yiyələnmiş, ictimai fikrin yüksəlişinə ciddi şəkildə təsir göstərməyi bacaran, həm də dövlət quruculuğunun ilk çətin mərhələsində atdıqları addımların məsuliyyətini dərk edən, bununla belə taleyüklü məsələlərdə qətiyyətli qərarlar qəbul etməkdən çəkinməyən sağlam və mübariz fikir sahibləri idi. Onların bir çoxu, nəinki Azərbaycanda, ümumən türk dünyasında və islam Şərqində milli düşüncə və dövlətçilik hərəkatının inkişafına təkan vermiş ideoloqlar idilər. Milli dövlətimizin üçrəngli bayrağını ilk dəfə qaldıran bu istiqlal mücahidləri üç aparıcı istiqamətdə - siyasət, mədəniyyət və cəmiyyət quruculuğu sahəsində sonrakı bütün inkişafımıza əhəmiyyətli təsir göstərən və nəhayət, Sovet İttifaqının dağıldığı ərəfədə milli müstəqillik hərəkatına ruh və ideya daşıyan fəaliyyətlərin təməlini qoymuşdular. Onların fədakar təşəbbüsləri nəticəsində, suveren dövlətçilik atributlarımızın yaradılması, Azərbaycan türkcəsinin dövlət dili statusunda qəbul edilməsi, milli-mənəvi dəyərlərimizin, ədəbiyyat və mədəniyyətimizin, maarif və məktəb işinin, milli ideologiyamızın inkişafı istiqamətində böyük uğurlar qazanılmışdı. Cümhuriyyət hərəkatı, sözün əsl mənasında, milli fikir intibahına yol açdı. Çarizmin devrilməsindən sonra Azərbaycanda yaranmağa başlayan müxtəlif siyasi partiya və təşkilatların azad fəaliyyətinə meydan verildi. Milli demokratiyanın müstəqil mətbuatı təşəkkül tapdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə iki dəfə hökumət başçısı seçilmiş Nəsib bəy Yusifbəylinin rəhbərliyi və təşəbbüsü ilə 1919-cu il 15 oktyabrda mətbuat haqqında qanun qəbul edilmişdi. Həmin illərdə Azərbaycanda səksəndən çox qəzet və jurnal dərc edilirdi. Azərbaycan kapitalı milli iqtisadiyyatın inkişafında necə böyük rol oynayırdısa, eyni dərəcədə maddi və mənəvi sərvətlərimizin yaradılmasında diqqətəlayiq işlərə və böyük xeyriyyəçilik məqsədlərinə sərf olunurdu. Bakıda estetik mədəniyyətin ən yüksək tələblərinə cavab verən memarlıq layihələri həyata keçirilir, nadir memarlıq nümunəsi olan tikinti işləri aparılırdı. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev və başqa sərvət sahibləri öz varından millətin tərəqqisi naminə maarifçilik və quruculuq məqsədlərinə əhəmiyyətli yardımlar ayırırdılar. Azərbaycan ziyalılarının yaradıcılıq potensialı artıq özünün nəyə qadir olduğunu göstərirdi. Millətin bütün enerjisi yeni Azərbaycan dövlətinin, onun siyasi təsisatlarının, təhsil sisteminin, hərbi qüvvələrinin, inzibati ərazi vahidlərinin yaradılmasına yönəldilmişdi. Cümhuriyyət dövründə Dövlət Bankı, 40 minlik nizami ordu, Azərbaycan Teleqraf Agentliyi yaradıldı, pul-poçt markaları buraxıldı, Yelizavetpol yenə də Gəncə, Qaryagin isə Cəbrayıl adlandırıldı. Orden, medal, gerb, himn, üçrəngli və səkkizguşəli bayraq qəbul olundu.

Müəllifin qeyd etdiyi kimi, Azərbaycanın Rusiya imperiyasına birləşdirildiyi, təqribən bir əsrlik dövrdə, çarizm burada davamlı ruslaşdırma siyasəti aparmış, ölkəni akkulturasiyaya məruz qoymuşdu. Yerli mədəniyyət gəlmə mədəniyyətin təsiri altına salınmışdı. Bu prosesi dayandırmaq və milli mədəniyyət-dil quruculuğu sahəsində köklü islahatlar aparmaq, dövlət idarəçiliyini azərbaycanlaşdırmaq kimi mühüm tarixi vəzifə də istiqlalçıların çiyninə düşürdü. Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin apardığı məqsədəyönlü siyasət nəticəsində, dövlət idarələri tədricən milli dil praktikasına yiyələnməyə başlamışdı. Məhz həmin dövrdə milli kadrların məsul vəzifələrə gətirilməsi ənənəsi yarandı. Milli kadrların formalaşmasına, ümumən, xalqın savadlanmasına böyük ehtiyacın olduğunu dərk edən Azərbaycan hökumətinin başlıca vəzifələrindən biri də xalq maarifinin inkişafı, xüsusilə, ali təhsil müəssisələrinin yaradılması idi. 1919-cu ildə Bakıda Dövlət Universiteti, müəllim kadrları hazırlayan Darülmüəllim açıldı. Firudin bəy Köçərlinin rəhbərliyi ilə Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan bölməsi Gürcüstanın Qori şəhərindən Qazaxa köçürüldü. Yüz nəfər tələbə ali təhsil almaq məqsədilə xarici ölkələrə göndərildi. Məktəblərin milliləşdirilməsinə, latın əlifbasına keçmək üçün hazırlıq işlərinə başlanıldı. 1919-cu ildə artıq Azərbaycanda 700-ə qədər məktəb vardı. Uğurlu təhsil siyasəti nəticəsində, hələ köhnə düşüncənin hökm sürdüyü bir şəraitdə, qızların məktəbə cəlb olunmasına nail olundu. 50 minə yaxın şagird kontingentinin 2 mini qızlardan ibarət idi. Cümhuriyyət düşüncəsi milli olduğu qədər də, özünütəsdiq iradəsinə sahib olduğu qədər də ümumbəşəri səciyyə daşıyırdı. Azərbaycan ideologiyası hələ əsrin əvvəllərindən bu istiqamətə tuşlanmışdı. Cümhuriyyət qurucularının bir çoxu, həqiqətən, universal şəxsiyyətlər idi. Onlar ölkənin ictimai, siyasi, mədəni həyatında fəal iştirak edir, dövri mətbuatda fəal çıxış edir, cəmiyyətdə fikir mübadiləsinə geniş meydan açırdılar. Təsadüfi deyil ki, o dövrdə dünya mədəniyyətinin bir sıra dahi sənətkarlarının - Firdovsi, Sədi, Rumi, Xəyyam, Şekspir, Molyer, Bayron, Hüqo, Puşkin, Krılov, Tolstoy və başqalarının əsərləri (əksəriyyəti orijinaldan olmaqla) Azərbaycan dilinə tərcümə edilir, oxunur və yayılırdı. Milli mədəniyyət quruculuğu sahəsində görülən işlər incəsənət dünyasını da hərəkətə gətirmişdi. Yaradıcılığın qaynar mühitində Dövlət Teatrı, "İstiqlal" Muzeyi, sənətkarlıq emalatxanaları fəaliyyətə başladı. 1919-cu ilin dekabrında açılmış "İstiqlal" Muzeyində milli dekorativ-sənət nümunələri, xalça və tikmələr, silahlar, əlyazmalar, kitablar, "Qurani-Kərim"in nadir nüsxələri toplanmışdı. "Molla Nəsrəddin", "Zənbur" jurnalları ictimai satiranın klassik nümunələrini yaradırdılar. Satirik qrafikanın banisi Əzim Əzimzadənin bir karikaturasında ciblərində Denikini, Kolçak, və Andraniki gəzdirən ingilis qəsbkarı təsvir olunmuşdu. Bu, Azərbaycan sənətkarının öz dövründə cərəyan edən hadisələrə çox kəskin reaksiyasını sərgiləyirdi. Milli rəssamlıq, teatr və musiqi sənətinin inkişafı onları yaradan ilk azərbaycanlı peşəkarların coşqun fəaliyyəti ilə bağlı idi. "Leyli və Məcnun" kimi zərif klassik operanın yaradıcısı Üzeyir bəy Hacıbəyov həm də Dövlət himninin, inqilabi marşların müəllifi idi. Dahi bəstəkar Üzeyir bəy Hacıbəyov və həmin himnin sözlərinin müəllifi Əhməd Cavad, artistlərdən Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski teatr və musiqimizin inkişafı sahəsində qızğın fəaliyyət göstərirdilər. Əzim Əzimzadə "Otello", "Aşıq Qərib", "Dəmirçi Gavə" tamaşalarının bədii tərtibatını hazırlamışdı. Bəhruz Kəngərli Naxçıvan Teatrında "Hacı Qara" tamaşasına tərtibat vermişdi. Beləliklə, milli mədəniyyətin bütün sahələrini inkişaf etdirməyin yaradıcı pafosu, təbii ki, istiqlal ideallarını geniş xalq kütlələrinə çatdırmaqda məqsədəyönlü fəaliyyətlərin birləşmiş enerjisindən doğurdu. Cəmi 23 ay içərisində bu qədər geniş və hərtərəfli fəaliyyətin təmin olunması xalqın ziyalı və ləyaqətli övladlarının Azadlıq və İstiqlal ideallarına sədaqətinin, öz həyat yollarını bütöv bir millətin mübarizə yoluna çevirə bilməyin və bu müqəddəs yolda hər cür fədakarlığa hazır olmağın ən parlaq təcəssümü idi. Azərbaycan Xalq Cümhuriyyəti təkcə suveren respublika qurmaq, milli siyasət və mədəniyyət təsisatlarını ərsəyə gətirmək təcrübəsini yaratmadı, həm də ən çətin tarixi zamanda yenilməz mənəviyyatın gücünü göstərmək, dövlətçilik əxlaqının müqəddəs dəyərlərini qorumaq ənənəsini yaratdı. Ümummilli Liderimiz Heydər Əliyev, məhz bu keyfiyyətlərinə görə Cümhuriyyət tariximizə istiqlaliyyətimizin sübhü kimi yüksək dəyər vermişdir. Cümhuriyyətlə təməli qoyulan suveren və demokratik respublika quruculuğu ənənəsi Ulu Öndər Heydər Əliyevin həm sovet dövründəki rəhbərliyi illərində, həm müstəqil dövlətimizin başçısı olduğu ən yaxın tariximizdə, həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yeritdiyi böyük inkişaf siyasətinin uğur qazanan hər mərhələsində davam etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir səhifəsi bütün azərbaycanlılar üçün olduqca əzizdir". "İstiqlal mücahidlərinin qurduğu dövlətin cəmi 23 ay yaşamasına baxmayaraq, milli özünüdərkin gerçəkləşməsinə böyük təsir göstərmişdir".

Ulu Öndər Heydər Əliyev AXC liderlərinin fəaliyyətlərini (o cümlədən, milli və insan haqlarının müdafiəsi sahəsində) yüksək dəyərləndirərək demişdir: "1918-ci il mayın 28-də Azərbaycan istiqlaliyyətinin elan edilməsində, Xalq Cümhuriyyətinin təşəkkül tapmasında və fəaliyyət göstərməsində cümhuriyyətə rəhbərlik etmiş şəxslərin - Əlimərdan bəy Topçubaşovun, Məmməd Əmin Rəsulzadənin, Fətəli xan Xoyskinin, Nəsib bəy Yusifbəylinin, Səməd bəy Mehmandarovun, Əliağa Şıxlinskinin və başqalarının böyük xidmətləri olmuşdur. Bu görkəmli dövlət xadimlərinin, vətənpərvər ziyalıların, peşəkar hərbçilərin adları xalqımızın yaddaşına əbədi həkk olunmuşdur".

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Uşaqlarda rast gəlinən təzyiqin əsas səbəbi böyrək patologiyalarıdır



Pediatriyada yüksək təzyiq və onun ürək-damar sisteminə təsiri yetkin yaşa çatmış yeniyetmələrdə geniş öyrənildiyi halda, kiçikyaşlı uşaqlarda həmin problemə çox az əhəmiyyət verilir. Ona görə də erkən yaşlı xəstələrin rutin müayinəsində arterial təzyiqin ölçülməsi aparılmır. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasının pediatrı Mədinə Hacıyeva universitetin mətbuat xidmətinə verdiyi müsahibədə deyib.

Həkim bildirib ki, uşaqlarda yenidoğulmuş dövrdən yüksək təzyiq ola bilər: "Təcrübədən məlumdur ki, uşaqlarda yenidoğulmuş dövrdən yüksək təzyiq ola bilər. Bunun hansısa ciddi bir xəstəliyin əlaməti ola biləcəyi üçün erkən diaqnostika vacibdir. Həm müalicə oluna biləcək təzyiq xəstəliyinin gecikmədən aşkara çıxarılması, həm də ona qarşı erkən yaşlarda tədbir görülə bilməsi üçün kiçikyaşlı uşaqlarda qan təzyiqinin ölçülməsi rutin fiziki müayinənin bir parçası olmalıdır".

Pediatrın dediyinə görə, arterial təzyiqin fizioloji dəyişikliklərinə hərəkət, bədənin vəziyyəti, xəstənin yaşı, günün saatları təsir edə bilər: "Ürək-damar sistemi, hormonlar, böyrəklər, qanın həcmi və s. təzyiqin normal saxlanılmasında rol oynadığı üçün bunların hansısa birində olan pozğunluq hipertenziyaya yol aça bilər. Uşaqlarda rast gəlinən təzyiqin 80 faizi böyrək patologiyaları, 20 faizi isə digər sistem xəstəlikləri ilə əlaqəlidir.

Uşaqlarda təzyiqin əlamətləri çox dəyişkən olur ki, bu da adətən xəstənin yaşından asılıdır. Məsələn, südəmər uşaqlarda anadangəlmə ürək çatmazlığı, tənəffüs sıxıntısı, böyümə və inkişaf geriliyi, qusma, çoxlu su içmə, tez-tez sidiyə getmə, görmə pozğunluqları, yorğunluq, burun qanaxmaları və üz iflici kimi simptomlar daha çox rast gəlinir".

Həkimin dediyinə görə, xəstəliyə xas digər əlamətlər də aşkar oluna bilər. Məsələn, aorta koarktasiyasında yuxarı və aşağı ətraflarda qan təzyiqinin fərqliliyi, bud arteriyasında nəbzin alınmaması, neyroblastomada qarında şişkinlik olması da təzyiqin yaranma səbəblərindəndir.

## Tərləmə əleyhinə təbii vasitələr

Tərləmə orqanizm üçün vacib olan proseslərdən biridir. Tər ifrazı lazımsız maddələrin, toksinlərin orqanizmdən xaric olunmasını təmin edərək bədənin temperaturunu sabit saxlamağa yönəlib. Fiziki iş zamanı tərləmə daha çox baş verir, lakin gərginlik və hərarətin yüksək olması da tərləməyə səbəb olur. Qədim Romada tərləməni sağlamlıq rəmzi hesab edərək salamlaşmaq əvəzinə "necə tərləyirsən?" deyə soruşarmışlar. Lakin bəzən tərləmə normadan artıq baş verir.



AZƏRTAC xəbər verir ki, həkim-terapevt Elnur Eldaroğlunun dediyinə görə, tərləmə normal fizioloji hadisə olsa da, normadan artıq tərləmə hiperhidroz adlanır. Normadan artıq tərləmə bir çox səbəblərdən - hansısa hormonal, infeksion, vegetativ nevroz və xroniki xəstəlik, vitamin, kalsium çatışmazlığı, eləcə də xroniki yorğunluq sindromu zamanı ola bilər. Bədənin tərləməsi daha çox yay ayları üçün xarakterik hesab olunur. Normadan artıq tərləyənlər üçün fəslin fərqi yoxdur. Çünki bu, havanın hərarətindən yox, orqanizmin xarakterindən asılıdır. 48 yaşdan yuxarı qadınlarda həmin prosesə daha çox rast gəlinir. Təbii ki, tərləmə zamanı narahatlıq hissi olur və bədəndən pis qoxu gəlməməsi üçün müxtəlif vasitələrə əl atılır.

Normadan artıq tərləmədən qorunmaq üçün tətbiq edilən üsullar barədə məlumat verən həkim-terapevt deyib: "Bu sahədə ən yaxşı üsullardan biri bitkilərdən ibarət vannaların qəbul edilməsidir. Xüsusilə bənövşə, gülümbahar və yatıqqanqal bitkilərindən hazırlanan vanna daha səmərəli təsir göstərir. Gündəlik həyatda qoxu əleyhinə qəbul edilən vasitələr kömək etsə də, onların mənfi tərəfləri də var. Çünki onlar bədənin normal tərləməsinə mane olur. Tərləmə çox olanda dezodorant əvəzinə zəy daşından istifadə etmək ən yaxşı təbii vasitədir. Onu hamam prosedurundan sonra bir az nəmli qalması şərti ilə qoltuqaltı nahiyəyə və əllərə sürtmək olar".

## Zidan açıqladı: "Ronaldonu Salaha dəyişmərəm"



"Real"ın baş məşqçisi Zinəddin Zidan Çempionlar Liqasının finalında "Liverpul"la oyun öncəsi fikirlərini bildirib. Qol.az-ın "Sky Sports"a istinadən yaydığı xəbərə görə, o, Kriştiano Ronalda və rəqib oyunçu Məhəmməd Salahla bağlı danışarkən bildirib: "Mən Ronaldonu Salahla dəyişə bilərəm? Xeyr. Bizdə Kriştiano var və ancaq öz oyunçularım haqqında danışıram. Rəqiblərimiz haqda danışa bilmərəm. Bilmirəm, onlar nə düşünürlər. Onu deyə bilərəm ki, biz həmişə udmaq arzusundayıq".

O deyib ki, kluba xarakterik olan coşğu və arzu ilə oynayacaqlar: "Kimsə bizim qələbəyə başqalarından daha az ac olduğumuzu deyə bilməz. Biz "Real"ıq. Hər zaman daha çoxunu istəyirik. İstədiyimizə nail olmaq üçün bütün gücümüzü verəcəyik". Qeyd edək ki, "Real" - "Liverpul" görüşü mayın 26-ı keçiriləcək.



## Formula 1 Almaniya Qran-Prisi təqvimə qayıdır

İyulda Almaniya Qran-Prisi Formula 1 yarışlarının təqviminə qayıdacaq. AZƏRTAC xəbər verir ki, yürüş Hokkenhaymda keçiriləcək. Bu avtodromun növbəti mövsüm üçün hələlik müqaviləsi yoxdur. Amma çempionatın icraçı direktoru Çeyz Kerri alternativ tapmağa hazırdır. Ç.Kerri deyib: "Biz istəyirik ki, Formula 1 ənənəvi yürüşün təqvimində qalsın. Almaniya Formula 1 üçün əhəmiyyətlidir. Bu ölkənin inkişaf etmiş avtomobil sənayesi və yürüş ənənələri var. Biz Berlin şəhərinin trasında mərhələ yarışı təşkil etməyə açığıq. Əgər şəhərdə bunu istəyirlərsə, biz onlarla danışıqlar aparmağa hazırıq".

Berlində Formula E mərhələsi keçirilir, amma Ç.Kerri bunda rəqabət görmür. O deyib: "Formula 1 qəhrəmanlar, dram və emosiyalar deməkdir. Formula E isə küçə ziyafətinə daha çox bənzəyir".

## Çempionlar Liqasının qrup mərhələsində iştirak edəcək 26 klub bəlli olub



UEFA Çempionlar Liqasının 2018/2019-cu il mövsümündə qrup mərhələsində birbaşa oynayacaq 26 komandanın hamısı bəlli olub. AZƏRTAC xəbər verir ki, son vəsiqəni "Latsio"nu 3:2 hesabı ilə məğlub edərək İtaliya A seriyasında dördüncü yeri təmin edən "İnter" əldə edib. Milan təmsilçisi 2011/2012-ci il mövsümündən sonra ilk dəfə qitənin ən ali klub yarışına qatılacaq.

Qrup mərhələsində İspaniyadan - "Barselona", "Real Madrid", "Atletiko Madrid", "Valensiya", İtaliyadan - "Yuventus", "Napoli", "Roma", "İnter", İngiltərədən - "Mançester Siti", "Mançester Yunayted", "Tottenhem", "Liverpul", Almaniyadan - "Bavariya", "Şalke", "Xoffenxaym", "Borussiya Dortmunt", Fransadan - PSJ, "Monako", "Lion", Rusiyadan - "Lokomotiv" və ÇSKA, Portuqalyadan - "Porto", Ukraynadan - "Şaxtyor", Belçikadan - "Bruqqe", Türkiyədən - "Qalatasaray" və Çexiyadan "Viktoriya Plezen" iştirak edəcəklər. Qeyd edək ki, qrupun digər 6 iştirakçısı təsnifat mərhələlərinin oyunlarından sonra müəyyənləşəcək. Həmin mərhələnin iştirakçıları arasında Azərbaycan çempionu "Qarabağ" klubuda var. Çempionlar Liqasının yeni formatına əsasən, Ağdam klubu bu dəfə mübarizəyə birinci təsnifat mərhələsindən başlayacaq. Bu mərhələnin ilk oyunları iyunun 10-da və 11-də, cavab matçları isə iyunun 17-də və 18-də keçiriləcək. Qrup mərhələsinin oyunlarına isə sentyabrın 18 və19-da start veriləcək.

## Bakıda keçiriləcək dünya çempionatında 4 serbiyalı cüdoçu iştirak edəcək




Serbiya millisinin Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatı üçün heyəti açıqlanıb. AZƏRTAC xəbər verir ki, Bakı mundialında 4 serbiyalı cüdoçu tatami üzərinə çıxacaq. Məşqçilər korpusu dünya çempionatında kişilərin yarışında Aleksandr Kukolj və Nemanya Majdov (hər ikisi 90 kq) şans verəcək.

Qadınların mübarizəsində isə Milisa Nikoliç (48 kq) və Yovana Roqiç (57 kq) birincilik uğrunda mübarizə aparacaq. Qeyd edək ki, cüdo üzrə dünya çempionatı sentyabrın 20-dən 27-dək Bakıda keçiriləcək.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**